www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4-5 mart 2017-ci il Şənbə № 49 (6663) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda vətəndaşı borclu olduğu şəxslər girov götürdü

yazısı səh.2-də

**Gündəm**

### Tanınmış blogger Mehman Hüseynov məhkəmə zalında həbs edildi



O, 2 il müddətinə azadlıqdan məhrum olundu; Mehman Əliyev: "...Gözləmirdim"

yazısı səh.3-də

### Mehriban Əliyevanın deputat olduğu dairədə yenidən seçki keçiriləcəkmi...

yazısı səh.5-də

### Novruz bayramına qədər bütün pensiyalar ödəniləcək

yazısı səh.2-də

### Amerikanın ölkəmizlə bağlı təhlükəli məzhəb planı

yazısı səh.10-da

### Əfvə həbsdəki siyasilərdən kimlər düşə bilər...

yazısı səh.5-də

### Arif Rəhimzadə məhşər ayağında-deputatın üzr istəməsi tələb olunur

yazısı səh.13-də

### "Martın sonuna doğru dollar kəskin bahalaşa bilər" - ekspert

yazısı səh.6-da

### Türkiyə-Almaniya münasibətlərindəki gərginlik pik həddə

yazısı səh.9-da

### Hava pisləşəcək, yağış, qar yağacaq

yazısı səh.2-də

### Gürcüstan NATO üzvü olmağa yaxınlaşır, Azərbaycan yolun harasındadır

yazısı səh.12-də

### 17 yaşlı oğlan onu evləndirmək istəyən atasını öldürdü

yazısı səh.14-də

## Azərbaycan üçün ideal situasiya, düşmənin savaş xofu

# BAKININ "SÜRÜNƏN MÜHARİBƏ" TAKTİKASI, İŞĞALÇININ İFLASI...

Ermənistan savaşsız da çökdürülə bilər; **tanınmış analitik:** "Dünya Qarabağ probleminə o halda ciddi diqqət ayıracaq ki..."



yazısı səh.8-də

## Qırğızıstan hökumətindən Azərbaycan əleyhinə xain mövqe

ECO toplantısındakı səsvermədə Bişkək Ermənistana dəstək nümayiş etdirib; rəsmi Bakıdan etiraz gəldi...

yazısı səh.12-də



*Mədət Quliyev:*

**"900-ə yaxın Azərbaycan vətəndaşı terrorçu təşkilatlara qoşulub"**

yazısı səh.2-də



*Saleh Məmmədov:*

**"Müşfiqin heykəli məsələsində bizə ən böyük cəza el qınağı oldu"**

yazısı səh.4-də



*Səfir Elin Süleymanov:*

**"Amerikalı tərəfdaşlarımıza imkan verməliyik ki, münasibətləri tənzimləsinlər"**

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017



## Prezident Azərbaycana gəlməyi asanlaşdıran sərəncamlar imzaladı

**Prezident İlham Əliyev Bakıda keçiriləcək beynəlxalq idman yarışları ilə bağlı sərəncamlar imzalayıb. Novator.az-ın məlumatına görə, martın 2-də imzaladığı sərəncamın birində dövlət başçısı Nazirlər Kabinetinə IV İslam Həmrəyliyi Oyunlarının təşkilində və keçirilməsində iştirak edən şəxslərin, habelə oyunların iştirakçılarının akkreditasiyası sisteminin təşkili üçün tədbirlər görməyi; akkreditasiya olunacaq şəxslərin dairəsini müəyyənləşdirməyi, akkreditasiyadan keçmə qaydasını və akkreditasiya kartının formasını təsdiqləməyi; sistemin fəaliyyətini təmin etməyi tapşırıb.**

Müəyyən edilib ki, akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2017-ci il aprelin 1-dən iyulun 1-dək pasport və ya digər sərhədkeçmə sənədləri və akkreditasiya kartı əsasında viza almadan Azərbaycana gələ və Azərbaycandan gedə bilərlər.

İslam Həmrəyliyi Oyunlarının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan ərazisində əmək fəaliyyətinə cəlb edilən və akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

Xarici İşlər Nazirliyi İslam Həmrəyliyi Oyunları ilə bağlı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlməsi qaydalarının sadələşdirilməsi barədə xarici ölkələrin müvafiq orqanlarına məlumat verməli; əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlməsi qaydalarının sadələşdirilməsi barədə məlumatın nazirliyin, habelə xarici ölkələrdəki səfirliklərin və konsulluqların internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etməlidir.

Dövlət Miqrasiya Xidmətinə Azərbaycana uçuşlar həyata keçirən aviasiya şirkətlərinə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycana gəlməsi qaydalarının sadələşdirilməsi barədə məlumat vermək tapşırılıb.

Digər sərəncama əsasən, "Formula 1" yarışı ilə əlaqədar Azərbaycana gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2017-ci il mayın 15-dən iyulun 15-dək Xarici İşlər Nazirliyinin Konsulluq İdarəsinin Azərbaycanın beynəlxalq hava limanlarında yerləşən struktur bölmələrində viza ala bilərlər.

Bu sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilir: "Formula 1" yarışlarının beynəlxalq təşkilatçıları olan "Formula One Management Limited" şirkətinin və Beynəlxalq Avtomobil Federasiyasının müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən kart və ya digər sənəd; Bakı Şəhər Halqası Əməliyyat Şirkətində akkreditasiyadan keçməni təsdiq edən kart.

## Bakıda vətəndaşı borclu olduğu şəxslər girov götürdülər

**Bakının Xətai rayonunda adam oğurluğu ilə bağlı hüquq-mühafizə orqanlarına məlumat daxil olub. Teleqraf.com xəbər verir ki, martın 2-də Bakı şəhər sakini Kərim Hətəmov (ad və soyad şərtidir) Xətai Rayon Polis İdarəsinin 35-ci polis bölməsinə müraciət edib.**

O bildirib ki, tanışı, paytaxt sakini Sənan Abbasov 2500 manat pul borcu olması ilə əlaqədar fevralın 28-də naməlum şəxslər tərəfindən oğurlanıb.

35-ci polis bölməsi əməkdaşları tərəfindən dərhal görülən tədbirlərlə həmin gün Ağakərim Səmədzadənin qardaşı Fərid və tanışı Ziya Sultanovla birgə Sənan Abbasovu "Opel" markalı avtomobilə oturdaraq rayon ərazisində kirayəyə götürdükləri evə aparıb və orada saxlamaları müəyyən edilib.

Həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə Ziya Sultanov, Ağakərim Səmədzadə və qardaşı Fərid tutulublar.

Faktla əlaqədar cinayət işi başlanıb.

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "900-ə yaxın Azərbaycan vətəndaşı terrorçu təşkilatlara qoşulub" - Mədət Quliyev

**"Dünyanın təhlükəsizliyini ciddi təhdid edən radikalizmlə mübarizə ölkəmiz üçün ciddi məsələdir".**

"Report"un xəbərinə görə, bunu Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi, general-leytenant Mədət Quliyev "Terrorçuluğa, ekstremizmə və radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda keçirilən konfransda deyib.



Onun sözlərinə görə, dünyanın bir sıra ölkələrində baş verən hadisələr, terrora çağırışlar hər kəsi narahat edir: "Bütün bunlar sülhə maneədir. Azərbaycan tərəddüd etmədən antiterror koalisiyasına qoşulub. Ölkəmiz terrorçuluqla mübarizədə öz töhfələrini verir. Bu məsələdə təkbaşına hərəkət etmək mümkün deyil".

**M.Quliyev qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyinin ilk illərindən ağır təhlükələrlə üzləşib:** "Ermənistanın işğalçılıq siyasəti nəticəsində torpaqlarımız işğal olunub. Məlumdur ki, Azərbaycan müxtəlif təhlükələrin olduğu məkanda yerləşir. Amma Azərbaycan dünyanın ən sabit ölkələrindən biridir. Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycan beynəlxalq aləmdə öz yerini tutub, etibarlı tərəfdaş olub. Qardaş müsəlman ölkələri ilə təmasların olması çox mühümdür. 2017-ci il Azərbaycanda İslam Həmrəliyi İli elan edilib. Dini radikalizmə meyllərin artması ilə bağlı bəzi neqativ hallar baş verir. Təəssüf ki, əksəriyyəti gənclər olan 900-ə yaxın Azərbaycan vətəndaşı terrorçu təşkilatçılara qoşulub. Onların bəziləri öldürülüb, bəziləri də Azərbaycan qanunvericiliyi ilə cəzalandırılıb. Son 1 ildə 54 nəfər Azərbaycan vətəndaşlığından xaric edilib".

"Azərbaycan tərəddüd etmədən antiterror koalisiyasına qoşulub. Beynəlxalq terrorçuluqla mübarizəyə öz töhfəsini verməkdədir" - deyə Mədət Quliyev çıxışında qeyd edib.

O bildirib ki, bu gün dünyanın təhlükəsizliyini ciddi təhdid edən terrorçuluq, ekstremizm və radikalizm ölkəmiz üçün də mühüm məsələdir.

Mədət Quliyev qeyd edib ki, ermənilərin Azərbaycanda törətdikləri 373 terror aktı nəticəsində 2000-dən artıq dinc

## Hava pisləşəcək, yağış, qar yağacaq

**Bakı və Abşeron yarımadasında martın 4-də havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Gün ərzində bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Gecə və səhər zəif duman olacaq.

Cənub küləyi günün ikinci yarısında arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, havanın temperaturunun gecə 4-7° isti, gündüz 10-15° isti, Bakıda gecə 5-7° isti, gündüz 13-15° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi 759 mm civə sütunundan 764 mm civə sütununa yüksələcək.

Nisbi rütubət gecə 75-85 %, gündüz 55-65 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı, duman olacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 2-7° isti, gündüz 14-19° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı gözlənilir.

Bir neçə gün davam edən mülayim hava şəraitindən sonra martın 4-ü gündüzdən 6-dək ölkə ərazisində hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.Havanın temperaturu ötən günlərlə müqayisədə tədricən 3-5° enəcək.



## Faiq Əmirovun həbs müddəti artırıldı

**Nəsimi Rayon Məhkəməsində Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin köməkçisi, "Azadlıq" qəzetinin yayım direktoru Faiq Əmirov barəsində seçilmiş həbs-qətimkan tədbirinin və istintaqın müddətinin uzadılması barədə təqdimata baxılıb.**

APA-nın məlumatına görə, hakim Şəlalə Həsənovanın sədrliyi ilə keçirilən prosesdə F. Əmirov barəsində seçilmiş həbs-qətimkan tədbiri və istintaqın müddəti 3 ay uzadılıb.

Qeyd edək ki, F. Əmirov Cinayət Məcəlləsinin 283.1 (Milli, irqi, sosial və ya dini düşmənçiliyin salınmasına, milli ləyaqətin alçaldılmasına, habelə milli, irqi, sosial və ya dini mənsubiyyətindən asılı olaraq vətəndaşların hüquqlarının məhdudlaşdırılmasına və ya üstünlüklərinin müəyyən edilməsinə yönələn hərəkətlər, aşkar surətdə və ya kütləvi informasiya vasitələrindən istifadə olunmaqla törədildikdə) və 168.1-ci (Dini məzhəbləri yaymaq və dini ayinlərin icrası adı altında fəaliyyət göstərən və bu fəaliyyətlə ictimai asayişi pozan, yaxud vətəndaşların sağlamlığına zərər vuran və ya formasından asılı olmayaraq vətəndaşların hüquqlarını pozan, habelə vətəndaşların qanunla müəyyən edilmiş vəzifələrini yerinə yetirməkdən yayındıran qrup təşkil etmə, ona rəhbərlik etmə və ya belə qrupda iştirak etmə) maddələri ilə təqsirləndirilir.

F. Əmirov barəsində həbs-qətimkan tədbiri ilk dəfə ötən il avqustun 22-də Nəsimi Rayon Məhkəməsi tərəfindən seçilib. Sonradan həmin müddət artırılıb.



## Avropa İttifaqı Dağlıq Qarabağda keçirilmiş "referendumu" tanımır

ATƏT-in Daimi Şurasının 2 mart 2017-ci ildə keçirilmiş iclasında Avropa İttifaqı (Aİ) Azərbaycanın işğal olunmuş ərazilərində keçirilmiş qanunsuz referendumla əlaqədar bəyanatla çıxış edib.

APA-nın məlumatına görə, bəyanatda deyilir ki, Avropa İttifaqı 20 fevral tarixində Dağlıq Qarabağda keçirilmiş "konstitusiya referendumu"nu tanımır.

"Avropa İttifaqı həmçinin bu "referendum"un keçirildiyi hüquqi və konstitusion çərçivələri tanımır. "Referendum"un nəticələri Dağlıq Qarabağın statusuna və danışıqlar prosesinə heç bir halda təsir edə bilməz. Aİ münaqişənin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk Qrupu həmsədrlərinin səylərinə dəstəyini bir daha ifadə edir", - deyə bəyanatda vurğulanır.

## "Novruz bayramına qədər bütün pensiyalar ödəniləcək" - nazir açıqlama verdi

"Novruz bayramınadək bütün pensiyaların maliyyələşdirilməsi başa çatdırılacaq". Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib.

Nazir qeyd edib ki, bununla əlaqədar bir neçə gün öncə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rəhbərliyi ilə müzakirələr aparılıb: "Hazırda vəsaitlərin artırılması istiqamətində tədbirlər görülür və buna uyğun olaraq çalışacağıq ki, Novruz bayramına qədər pensiyalar hesablara köçürülsün".

## DÜZƏLİŞ

**Qəzetimizin dünənki sayında dərc olunmuş "Şərq qonşumuz işğalçıya qapı açır - Azərbaycana qarşı hiylə" manşet yazısının sərlövhəsində yanlışlığa yol verilib. Yazının başlığı əslində "Qərb qonşumuz işğalçıya qapı açır" kimi getməli idi. Texniki xətaya görə oxuculardan üzr istəyirik.**

**❑ REDAKSİYA**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017

**Suraxanı Rayon Məhkəməsində hakim Ceyhun Qədimovun sədrliyi ilə Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayevin blogger Mehman Hüseynova qarşı verdiyi xüsusi ittiham qaydasında şikayət üzrə məhkəmə prosesi yekunlaşıb. Martın 3-də prosesdə hökm oxunub. Məhkəmənin hökmü ilə M.Hüseynov 2 il müddətinə azadlıqdan məhrum edilib.**

# Tanınmış blogger Mehman Hüseynov məhkəmə zalında həbs edildi

## O, 2 il müddətinə azadlıqdan məhrum olundu; **Mehman Əliyev:** "...Gözləmirdim"



Blogger məhkəmə zalında həbs edilib. Bildirək ki, M.Hüseynov yanvarın 9-da saxlanılıb və məhkəmə qərarı ilə polisin qanuni əmrinə tabe olmamaqda ittiham edilərək 200 manat cərimə edilib. Sərbəst buraxıldıqdan sonra o, saxlanılarkən işgəncələrə məruz qalması barədə müsahibə verib. Bu zaman səsləndirdiyi fikirlərə görə M.Musayev onun böhtan atdığını iddia edib və M.Hüseynovun həbsi üçün məhkəməyə müraciət edib. Xüsusi ittiham qaydasında şikayətdə "Nəsimi polisində heç zaman işgəncənin olmaması" bildirilib. M.Hüseynovun vəkili isə bu iddianın doğru olmadığını, Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) 7 may 2015-ci il qərarına əsaslanıb. Belə ki, həmin qərarda bloggerin qardaşı Reportoyrların Azadlıq və Təhlükəsizliyi İnstitutunun keçmiş rəhbəri Emin Hüseynovun Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Bölməsində qanunsuz həbs edilməsi və işgəncə verilməsi faktı tanındığını qeyd etmişdi. E.Sadıqov həm də AİHM-in presedent qərarını qeyd edib ki, buna görə də fikrin ifadə edilməsi azadlığına görə cinayət məsuliyyətinə cəlb olunması yolverilməzdir.

Bununla belə, məhkəmə M.Hüseynov barəsində başqa yerə getməmək haqda iltizam tədbiri seçmişdi. Mehman Hüseynovun vəkili Elçin Sadıqov müvəkkili haqda çıxarılan hökmü qanunsuz və əsassız adlandırıb.

**"Turan" İA-nın direktoru Mehman Əliyev AzadlıqRadiosuna deyib ki, belə bir gediş gözləmirmiş:** "Açığı, gözləmirdim. Nəsə demək çox çətindir. Ancaq aparılan həbslər, təzyiqlər xəttin sərtləşməsindən xəbər verir". **Amma M.Əliyev bu siyasi xəttin uğursuz olduğunu düşünür:** "Azərbaycanda 2005-ci ildən jurnalistlərə təzyiqlər, həbslər artıb. Ancaq son 12 ildə hakimiyyətə qarşı tənqidlər internetdə, sosial şəbəkələrdə artıb, azalmayıb. Bu da onu göstərir ki, bu yolla mübarizə aparmaq mənasızdır".

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev deyib ki, beynəlxalq təşkilatların hesabatlarına görə, bu gün Azərbaycanda 12 jurnalist və blogger həbsdədir. Bu, beynəlxalq aləmdə ən yüksək göstəricilərdən biridir:** "Bu baxımdan, onun həbsini o qədər də gözlənilməz adlandırmazdım. Azərbaycan üçün geniş yayılmış praktikadır. Sadəcə, böhtan maddəsi ilə həbs edilməsi, bax, bu gözlənilməzdir. Uzun illərdir Azərbaycan öyünürdü ki, böhtana görə heç kimi həbs etmirik. Beynəlxalq təşkilatların da tələbi budur ki, belə hallara Mülki Məcəllə çərçivəsində baxılsın. Prezident də 2010-cu ildən buna moratorium qoymuşdu. Həbslər də bu maddələrlə aparılmırdı. Bununla da uzun illər debat mövzusu olan problem, diffamasiya məsələsi gündəmə qayıdır".

**A.Əliyev hesab edir ki, yaxın zamanlarda həbslər yenidən arta bilər:** "Əslində həbs olunası jurnalistlər də çox qalmayıb. Çünki müxalif və müstəqil mövqedə dayanan KİV-lər öz fəaliyyətini dayandırıb, böyük əksəriyyəti nəzarət altındadır. Bu cür bir neçə müstəqil jurnalistin dənlənməsi prosesi sürətlənə bilər. Xüsusən də nəzərə alsaq ki, Azərbaycan İslam Olimpiadası ərəfəsindədir. Bu cür tədbirlər ərəfəsində ölkə hakimiyyətinin tənqidi güclənir. Hakimiyyət də, nədənsə, çıxış yolunu həbslərdə görür".

Mehman Hüseynov video-blogger kimi bəzi məmurların, deputatların mülklərini çəkir və onların bunları necə əldə etməsi ilə bağlı açıq suallar qoyurdu. Bəzən rəsmilər ona hansısa formada cavab verməyə məcbur qalırdılar. Bu həbsdən sonra belə çəkilişlər mümkün olacaqmı?

Xatırladaq ki, polis rəisi Mehman Hüseynovun CM-in 147.2-ci (ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə məsuliyyətə cəlb olunub, cəzalandırılmasını tələb edirdi.

Mehman Hüseynov yanvarın 9-u axşam saatlarında Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanıb. O, İnzibati Xətalar Məcəlləsinin 535.1-ci (polisin qanuni əmrinə tabe olmamaq) maddəsi ilə təqsirli bilinərək, Nəsimi Rayon Məhkəməsinin qərarı ilə 200 manat cərimə olunub və sərbəst buraxılıb. M.Hüseynov məhkəmədən azad edildikdən sonra jurnalistlərə açıqlamasında bildirib ki, o, peşə fəaliyyətinə görə təzyiqə məruz qalır və saxlanılarkən polislər ona işgəncə veriblər. DİN onun bu açıqlamasını təkzib edib və bloggerin böhtan atdığı barədə açıqlama yayıb. Açıqlamada həmçinin bildirilirdi ki, Mehman Hüseynovun polisi ağır cinayətdə ittiham etməklə böhtan atması əməlinə hüquqi qiymət verilməsi üçün Daxili İşlər Nazirliyi tərəfindən respublika Baş Prokurorluğu qarşısında vəsatət qaldırılıb.

Bundan sonra isə Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayev xüsusi ittiham qaydasında məhkəməyə müraciət etmişdi.

**Barəsində hökm çıxarıldıqdan sonra o, Şüvəlandakı İstintaq Təcridxanasına aparılıb. Vəkili Elçin Sadıqov günün sonunda təcridxanada bloggerlə görüşüb.** "Mehman hazırda karantində saxlanılır. Onun saçlarını qırxıblar. Yaxın günlərdə blogger barəsində hökmdən apelyasiya şikayəti verəcəyik" - deyə, vəkil qeyd edib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# ABŞ-ın prokuroru seçki vaxtı rus səfirlə niyə görüşüb...

## **Elxan Şahinoğlu:** "Rusiyanın Amerikadakı səfirinin də işi çətinləşəcək"

**ABŞ-ın baş prokuroru Jeff Sessions yeni prezident Donald Trampın seçki kampaniyası dövründə iki dəfə Rusiyanın Amerikadakı səfiri Sergey Kislyakla görüşünə görə sərt şəkildə qınanır. Görüşün üzə çıxması Trampın qələbəsində Rusiya izinin olması ilə bağlı məsələni bir daha gündəmə gətirib.**



Prezident seçkilərində məğlub olan demokratlar J.Sessionsu "andını pozmaqda" ittiham edib və istefaya göndərilməsini tələb ediblər.

Baş prokurorun görüşünün bu qədər qalmaqal yaratmasının özü də müzakirə edilən məsələlər sırasındadır. Çoxları hesab edir ki, bu görüş normaldır, sadəcə, rus səfiri ilə görüşün olması məsələni dramatikləşdirib. Bəziləri də düşünür ki, bu görüşdə heç də xoş niyyət olmayıb, seçkilərin nəticələrinə təsir etmək üçün həyata keçirilən işlərdən biri olub.

**Politoloq Elxan Şahinoğlu Trampın Rusiya ilə təmasda olan şəxslərə vəzifə verməsinin sıradan biri olmadığı qənaətindədir:** "Donald Trampın prezident seçilməsində Rusiyanın adının mütəmadi hallanması təsadüfi deyil. Birincisi, prezident seçkisində Trampın rəqibi Hillari Klintonun məğlubiyyətinin əsas səbəbi onun dövlət katibi olduğu dövrdə internetdəki yazışmalarının faş edilməsi oldu. Bunu hakerlər etmişdi. Həmin hakerlərin isə Rusiya kəşfiyyatına bağlı olduğu iddiaları var. Böyük ehtimalla Kremldən təlimat alan gizli hakerlər H.Klintonun bütün məktublarını üzə çıxartmışdılar. Digər tərəfdən, Tramp seçki kampaniyası dövründə terrorçulara qarşı Rusiya ilə birgə mübarizə aparacağı vədini vermişdi. Tramp prezident seçilən kimi administrasiyada yüksək vəzifələrə Rusiya rəsmiləri ilə təmasları olan şəxsləri təyin etdi. Onlardan biri - milli təhlükəsizlik müşaviri Rusiyanın ABŞ-dakı səfiri ilə səmimi telefon söhbətinə görə istefa vermək məcburiyyətində qaldı. Dövlət katibi Reks Tillerson da Moskva ilə münasibətlərin nizamlanması üzərində işləyir. Ancaq bütün bunlar o demək deyil ki, Tramp və onun administrasiyası Kremllə asanlıqla dostlaşacaq. Trampın nəyi necə edəcəyini heç kim proqnozlaşdıra bilmir. Amerikanın yeni prezidenti siyasətçi deyil, bir çox məsələyə biznesmen kimi yanaşır. Əgər Rusiya ilə yaxınlıq Amerika üçün siyasi və iqtisadi divident gətirəcəksə, Tramp rusiyalı həmkarı Vladimir Putinlə yaxınlığa gedəcək. Əks halda, münasibətlərdə irəliləyiş gözləməyə dəyməz. Rusiyanın ABŞ-dakı səfiri ilə təmas artıq amerikalı rəsmilər və diplomatlar üçün qorxulu yuxuya çevrilib. Kim ki, Rusiya səfiri ilə görüşüb fikir mübadiləsi aparırsa və ya onunla telefonla danışırsa, həmin şəxsin siyasi karyerası təhlükə altına girir. Bu onunla bağlıdır ki, Amerika-Rusiya münasibətləri gərgindir, beynəlxalq aləm Putini qəsbkar kimi qiymətləndirir. Ona görə də onun təyin etdiyi səfirlə təmasdan qaçmağa çalışırlar. Bu istefalardan sonra Rusiyanın Amerikadakı səfirinin işi də çətinləşəcək".

**Politoloq deyir ki, normalda istənilən ölkənin səfiri ilə görüşmək, onunla müzakirə aparmaq qəbul olunan qaydadır:** "Ancaq Amerikada hesab edirlər ki, Ukraynanı parçalayan, Krımı ilhaq edən, üstəlik, Amerikadakı prezident seçkilərində neqativ rol oynayan ölkənin səfiri ilə görüşmək Kremlin siyasəti ilə razılaşmaq anlamına gəlir. Baş prokurorun istefaya getməsi üçün ciddi səbəb yoxdur. Əgər Tramp baş prokuroru da istefaya göndərsə, bu o demək olacaq ki, Amerika prezidenti ona qarşı formalaşan müxalifətdən çəkinir. O isə zəif görünmək istəmir. Bir də Trampın prezidentliyindən heç iki ay keçməmiş bu qədər istefa onun reytinqinə mənfi təsir edə bilər".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017



# "Bizim üçün ən böyük cəza el qınağı oldu" - "Azəravtoyol"un sədri danışdı

## Saleh Məmmədov: "Müşfiqin heykəli ilə bağlı səhvən Bakı Şəhər İcra Hakimiyyətinə müraciət etmişdik"

**"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədovun "Yeni Müsavat"a müsahibəsi.**

**- Saleh müəllim, son günlər rəhbərlik etdiyiniz təşkilatın adı mətbuatda hallanmağa başlayıb...**

- Daha doğrusu, hallandırdılar. Yaxşı işimizi görmürlər, nöqsanı dərhal yazıb hallandırırlar.

**- Mikayıl Müşfiqin abidəsi ilə bağlı baş vermiş qalmaqalla bağlı istədik ki, sizin mövqeyi öyrənək və oxucuya çatdıraq.**

- Allah sizi var eləsin. Bəli, səhv etmişik, yanlışa yol vermişik. Bu işdə günahı olan şəxslər cəzalandırılıb. Tezliklə görkəmli şairimizin abidəsi yenidən ucaldılacaq. Həmin yerdən 5-6 metr arxa tərəfə qoyulacaq. Gözəl də bir abidə olacaq. Yəqin ki, mart ayının 20-25-nə kimi bu işi yekunlaşdıracağıq. Siz özünüz də gəlib iştirak edərsiz o tədbirdə. Əslində eyni abidədi, sadəcə, yerini bir az dəyişdirmişik, ətrafı da çox gözəl olacaq.

**- Siz o abidəni şifahi xəbərdarlıq edib götürmüsüz. Bunu "Yeni Müsavat"a müsahibə verərkən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev də dedi.**

- Burada anlaşılmazlıq oldu. Açığı, elə bildik ki, paytaxtdakı parklar, abidələr Bakı Şəhər İcra Hakimiyyətinin balansındadır. Ona görə də məktubla ora müraciət etdik.

**- Bəs BŞİH-dən sizə deyilmədi ki, bu işlərə onlar baxmır?**

- Məktub göndərdik, cavab vermədilər. Biz də iş yubanmasın deyə işə başladıq. Bəzən məktub göndəririk, aylarla cavab gəlmir. İş də getməlidi axı. Əslində orda işi görən təşkilat tələskənlik edib.

**- Orda iş görən "Azəravtoyol" ASC-nin idarəsidir?**

- Bəli. "Azəravtoyol"un 8 saylı idarəsidi.

**- Şəxsən sizə ölkə rəhbərliyi tərəfindən hər hansı irad bildirildimi?**

- Bəli, bildirilib. Cənab prezident göstəriş verdi ki, bu işdə səhlənkarlığa yol vermiş adamlar cəzalandırılsınlar.

**- Neçə nəfər cəzalandırıldı, Saleh müəllim? Cəzalar nədən ibarət oldu?**

- Deməli, həmin təşkilatın idarə rəisi, baş mühəndisi, iş icraçısı.

**- İşdən çıxarıldılar, yoxsa töhmət verildi?**

- Xəbərdarlıq, şiddətli töhmət və işdən çıxarılma. Cəza bu şəkildə oldu. Sahə rəisi işdən çıxarıldı, baş mühəndisə şiddətli töhmət verilib, idarə rəisinə xəbərdarlıq edilib.

**- Sizə hər hansı formada xəbərdarlıq oldumu?**

- Siz bunda maraqlısınız ki, mənə xəbərdarlıq olsun?

**- Yox, qətiyyən. Mən jurnalist kimi sual verirəm.**

- Bizim üçün ən böyük cəza el qınağıdı. Mətbuat bizim bu səhlənkarlığımızı yazdı, el də bizi qınadı. Bundan böyük cəza var?

**- Saleh müəllim, bugünlərdə xəbər yayıldı ki, "Azəravtoyol" ASC "Azərbaycan Dəmir Yolları" QSC ilə birləşdiriləcək.**

- Vallah, siz ağıllı, savadlı oğlansınız, avtomobil yolunun dəmir yolu ilə birləşdirilməsi necə ola bilər axı? Bir də ki, bu cür məsələlərə ölkə başçısı qərar verir, kiminsə fikri ilə bu işlər olmaz. Kimin nə deməyindən asılı olmayaraq, biz öz işimizi görürük. Ölkə üçün gözəl yollar çəkirik.

**- Yol çəkilişlərində vəziyyət necədir? Hansı iri layihələr var?**

- "Azəravtoyol"un İstismar və Tikinti Baş İdarəsində 2017-ci ildə görəcəyimiz iş planı və qrafiki var. Lazım olsa, müraciət edin, sizə o qrafiki versinlər. Uzun qrafikdi, telefonla demək mümkün olmaz. Orda harda hansı işlər görüləcək, dəqiqliyi ilə göstərilib.

**❑ Azər AYXAN**

# "Bu, şairə hörmətsizlik deyil, səriştəsizlikdən və təcrübəsizlikdən baş verib"

## Yasamalın icra başçısı İbrahim Mehdiyev də Müşfiqin heykəli ilə bağlı qalmaqala münasibət bildirdi

## "Elə evlər var ki, heç onun kvadratının dəyəri 1000 manat da deyil, ancaq biz onlara 1500 manatdan ödəyirik"

**Mikayıl Müşfiqin heykəlinin əvvəlki yerində bərpası məsələsi hələ də gündəmdədir. Bu barədə "Yeni Müsavat"a müsahibə verən Yasamal rayonunun icra başçısı İbrahim Mehdiyev həmçinin "Sovetski"də, aparılan işlərdən, Yasamalda hündürmərtəbəli binanın dam örtüyünün uçmasından və sair məsələlərdən danışdı.**

**- İbrahim müəllim, Mikayıl Müşfiqin heykəli ilə bağlı son durum necədir?**

- Mikayıl Müşfiqin heykəli ilə bağlı iki gün öncə mən, Memarlar İttifaqının sədri Eldar Qasımzadə, Mədəniyyət Nazirliyinin idarə rəisi Zakir Sultanov və "Azəravtoyol" ASC-nin məsul işçiləri birgə müşavirə keçirdik. Belə qərara gəldik ki, heykəl onların planlaşdırdığı yerdə yox, daha yaxşı görünən bir yerdə, heykəlin əvvəlki məkanından 5 metr aralıdakı bir yerdə ucaldılsın. Ona görə də təklif verildi ki, orada yerin üst səthi sökülsün, heykəl üçün xüsusi bünövrə qazılsın, heykəl orada quraşdırılsın. Ətrafında da gözəl yaşıllıq yaradılsın. Mən hesab edirəm ki, bu məsələ qısa müddət ərzində öz həllini tapacaq.

**- Mətbuatda belə bir məlumat getdi ki, bu heykəl heç bir icazə alınmadan, özfəaliyyət olaraq götürülüb. Yasamal rayonunun icra başçısı olaraq heykəlin götürüləcəyi ilə bağlı əvvəlcədən məlumatlı idinizmi?**

- Heykəlin götürülməsindən mənim xəbərim yox idi. Ancaq götürülən zaman mənə xəbər çatanda, mən həmin dəqiqə "Azəravtoyol" ASC-nin rəhbərliyinə xəbər elədim. Dedim ki, niyə belə edirsiniz? Dedi ki, mən şifahi olaraq hər yerə məlumat vermişəm. Mən ona dedim ki, sən bilirsənmi Mikayıl Müşfiq kimdir? O bizim üçün tarixi şəxsiyyətdir. Onun heykəlini bu cür götürmək doğru deyil. Gərək o barədə rəsmi olaraq Mədəniyyət və Turizm Nazirliyinə müraciət edəydiniz. Bu işə bilavasitə onlar rəhbərlik edir, onlar icazə verirlər. Yəqin ki, onlar da rəhbərliklə danışıb müvafiq qərar verərdilər. Sonradan mən Zakir Sultanova da zəng edib danışdım. Dedim ki, mən indi məlumat aldım və "Azəravtoyol" ASC-nin rəhbəri ilə danışdım. Bildirdim ki, onlar təcrübəsiz bir iş görüblər. Bunu həll etmək üçün yığışaq və məsələni həll edək. O isə dedi ki, mən bu haqda hər yerə məlumat verəcəyəm, cəzasını versinlər. Mən də öz növbəmdə rəhbərliyə məlumat verdim. Bildirdim ki, bu, təcrübəsizlikdən və səriştəsizlikdən irəli gəlir. Yəni Mikayıl Müşfiqə hörmətsizlikdən irəli gəlməyib. Mən onlara dedim ki, bu ölkənin Mikayıl Müşfiq kimi şairini mən ancaq Rusiyanın Puşkini, Lermontovu ilə müqayisə edərəm. Ruslar onlara necə rəğbət bəsləyirlərsə, biz də onlara elə rəğbət bəsləməliyik. Azərbaycan xalqının görkəmli şairinin heykəlinə belə davranmaq olmaz.



Ancaq orada çəkilən yol infrastrukturu Yasamal rayonunda istər "Sovetski" məhəlləsində, istər Abdulla Şaiq küçəsində böyük rol oynayır. Bu böyük bir işdir. Biz oradan ümumilikdə 4 mindən çox ailə köçürmüşük. Bu proses çox böyük çətinliklərlə həyata keçirilib.

**- İbrahim müəllim, "Sovetski"dən söz düşmüşkən, orada işlər nə yerdədir? Proses hansı mərhələdədir?**

- Birinci mərhələdə köçürüləsi evlərin demək olar ki, çox az hissəsi qalıb. Onlar da demək olar ki, bir-iki günə həll olunacaq. Ancaq "Azəravtoyol" tərəfindən orada sürətli işlər aparılır, kanalizasiya xətləri qazılıb, borular qoyulub. Yol infrastrukturu üçün bütün layihələr həyata keçirilib. Orada cəmi bir 14 mərtəbəli binanın köçürülməsi qalıb. Bu məsələ də Maliyyə Nazirliyi ilə müzakirə olunur. Hörmətli Samir müəllim bu məsələ ilə bağlı vəsait məsələsini həll edən kimi biz həmin binanı da sökməyə başlayacağıq. Bu zaman birinci mərhələ tam olaraq başa çatacaq.

**- İqtisadi böhran bu prosesə müəyyən qədər mənfi təsir göstərirmi?**

- Əlbəttə, müəyyən qədər göstərir. Ancaq mən cənab prezidentə təşəkkür edirəm ki, bu məsələ ilə bağlı maliyyə nazirinə göstəriş verib. Mənə çatan məlumatlara görə, belə bir göstəriş verilib.

**- Yeni büdcədən də "Sovetski"də görüləcək işlərlə bağlı pul ayrılıbmı?**

- Bir neçə gün bundan öncə bizə 8 milyon manat pul ayrıldı. Məsələnin qoyuluşu belədir ki, iş getdikcə o pullar ödəniləcək.

**- Büdcədəki vəsait çatışmazlığı, iqtisadi böhranla bağlı köçürülən sakinlərə ödəniləcək kompensasiyanın azaldılması nəzərdə tutulurmu?**

- Mənzillərin hər kvadratının 1500 manatdan hesablanması qaydası dəyişməyib. Eyni qiymətlə dəyərləndirmə davam edir. Heç bir artım və ya azalma olmayıb. Elə evlər var ki, heç onun kvadratının dəyəri 1000 manat da deyil. Ancaq biz onlara 1500 manatdan ödəyirik.

**- İbrahim müəllim, ötən həftənin sonunda Bakıda güclü külək oldu və Yasamal rayonu ərazisində bir binanın damı uçdu. Bunun videosu da sosial şəbəkələrdə paylaşıldı. Yasamal rayonunun qara, küləyə daha həssas bir ərazi olduğunu nəzərə alsaq, həmin binanın damı uçduqdan sonra bu məsələyə nəzarət gücləndirildimi? Hər hansı komissiya yaradıldımı, nəzarət oldumu?**

- İki il öncə bu binanın damına örtük vurulanda biz o işin qabağını aldıq. Sahibkar bizə Bakı Şəhər İcra hakimiyyətinin sərəncamını göstərdi ki, dam örtüyünün vurulmasına icazə var. Sonra onlara dedik ki, bunu Fövqəladə Hallar Nazirliyindən ekspertizadan keçirməlisiniz. 14 mərtəbənin üstündə əlavə iki mərtəbə tikirsiniz, belə olmaz axı. Bizə sənədləri göstərdi ki, bu, Fövqəladə Hallar Nazirliyinin ekspertizasından keçib. Ondan sonra onlara yaxınlaşmağa bizim ixtiyarımız yox idi. Bakı Şəhər İcra Hakimiyyəti sərəncam verib, Fövqəladə Hallar Nazirliyi də ekspertizadan müsbət rəy verib. Onlar bu işi davam etdirdilər və bu hadisələr baş verdi. Hazırda prokurorluq məlum hadisələrlə bağlı sorğu-sual aparır. Burada bir çox insanlara ziyan dəydi, dam örtükləri maşınların üzərinə düşmüşdü. Bu hadisələri aradan qaldırmaq üçün prokurorluq bu işlərlə məşğuldur.

**- Digər binalarda da belə hadisələrin baş verməsi ehtimalı varmı? Bir nəzarət komitəsi yaradıldımı?**

- Bütün binalar yoxlanılır. Belə bir hal digər binalarda yoxdur. Bu sonradan tikilmə idi. 14 mərtəbənin üzərində sonradan iki mərtəbənin tikilməsi doğru deyildi. Bakı Şəhər İcra Hakimiyyəti, Fövqəladə Hallar Nazirliyi rəy versə də, mən öz tərəfimdən deyirəm ki, bu düzgün deyildi. Ümumiyyətlə, Bakıya 16-18 mərtəbəli bina yaraşmır. Şəhərsalma Komitəsi bu gün Bakıda 14 mərtəbədən yüksək bina tikməyə icazə vermir. Düz də edir. Mən onların bu qərarları ilə razıyam. Bakı şəhərində 14 mərtəbədən yuxarı bina tikmək olmaz. Yüksək mərtəbəli binaların tikilməsində normativlərə də əməl olunmalıdır. Hər adambaşına müəyyən qədər ərazi düşməlidir. Binalar tikilir, ancaq insanların istirahəti üçün yer yoxdur, maşınları saxlamaq üçün yer yoxdur, uşaqların oynaması üçün meydan yoxdur. Binanı binanın içində tikmək nə dərəcədə düzgündür?

**- İcra hakimiyyəti olaraq, sizin bu prosesə müdaxilə etmək imkanınız yoxdurmu?**

- Müdaxilə edirik, müəyyən layihələrə təsir göstəririk. Ancaq bu qanun-qaydalara Şəhərsalma və Arxitektura Komitəsi nəzarət edir.

**❑ Azər AYXAN,**
**❑ Nərgiz LİFTİYEVA**

# Mehriban Əliyevanın deputat olduğu dairədə yenidən seçki keçiriləcəkmi...

## MSK katibi Mikayıl Rəhimov: "Müraciət daxil olanda Mərkəzi Seçki Komissiyası operativ şəkildə toplanıb müvafiq münasibət bildirəcək, seçkini isə..."

**Azərbaycan Respublikasının birinci vitse-prezidenti, ölkənin birinci xanımı Mehriban Əliyeva deputat mandatını təhvil verəcək. Bu barədə Mehriban Əliyeva "Rossiya 24" kanalına müsahibəsində bildirib: "Mən artıq 12 ildən çoxdur ki, parlamentin deputatıyam. Qanunvericiliyə görə, öz səlahiyyətlərimi təhvil verməliyəm. İndi artıq deputat səlahiyyətlərimin təhvil verilməsi prosesi gedir. Əlbəttə, mən bütün bu illəri dərin minnətdarlıqla xatırlayıram. Çünki əvvəla, bizim ölkə parlamentində həmkarlarla, ən əsası isə seçicilərlə ünsiyyətimiz, fəaliyyətimiz olub. Bu, mənim üçün böyük təcrübədir".**



Qeyd edək ki, Mehriban Əliyeva Milli Məclisdə 14 saylı Xəzər ikinci seçki dairəsini təmsil edir.

**Mərkəzi Seçki Komissiyasının katibi Mikayıl Rəhimov** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Milli Məclisin üzvü deputat mandatından hər hansı səbəbə görə imtina etdikdə deputatın Mərkəzi Seçki Komissiyasına bu barədə rəsmi müraciəti olmalıdır və bundan sonra Mərkəzi Seçki Komissiyası müraciətə baxıb müvafiq qərar qəbul etməlidir. Deputat mandatına xitam verildikdən sonra boş qalan dairədə yeni seçkinin təyin olunması da Seçki Məcəlləsinin tələbi ilə tənzimlənir: "Seçki ölkə prezidentinin sərəncamı ilə təyin edilir və bundan sonra həmin dairədə seçkilər keçirilir. Odur ki, hörmətli Mehriban xanım Əliyeva deputat mandatını təhvil verdikdən və 14 saylı dairə deputatsız qaldıqdan sonra bu dairədə yeni seçkinin nə zaman olacağını prezident sərəncamı verildikdən sonra biləcəyik. Bu günədək Mehriban xanım Əliyevanın müraciəti daxil olmadığından məsələyə təbii ki, baxılmayıb. Müraciət daxil olanda Mərkəzi Seçki Komissiyası operativ şəkildə toplanıb müvafiq münasibət bildirəcək. Çünki xüsusi araşdırma aparılmasına ehtiyac yoxdur ki, müəyyən vaxt aparsın. Deputat mandatının təhvil verilməsinin səbəbi aydındır".

Seçki Məcəlləsinin 176-cı maddəsinə görə, deputat mandatının boş qalmasından sonra bir ay müddətində müvafiq birmandatlı seçki dairəsi üzrə əlavə seçkilər təyin edilməlidir. Konstitusiyanın 87-ci maddəsində isə qeyd olunur ki, parlamentin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, hər hansı səbəbdən deputatsız qalan dairələrdə seçkilər keçirilmir. Hazırkı Milli Məclis isə 2015-ci ilin noyabrında seçilib. Bu o deməkdir ki, növbəti parlament seçkilərinə üç ildən artıq müddət qalıb.

**Xatırladaq ki, 14 saylı Xəzər seçki dairəsindən tanınmış müxalifətçilərdən ADP sədrinin birinci müavini Həsrət Rüstəmov 2005-ci ildə keçirilən parlament seçkilərində namizəd olub. Sözügedən dairədə yeni seçkilər keçiriləcəyi halda şansını ikinci dəfə sınayıb-sınamayacağını Həsrət Rüstəmovdan xəbər aldıq. Həsrət Rüstəmov "Yeni Müsavat"a bildirdi ki, 14-cü dairənin ərazisində işləyib və orada çoxlu sayda seçiciləri, dostları, qohumları yaşayır. Lakin həmin dairədə yeni seçkilər keçiriləcəyi halda namizədliyini irəli sürməyi düşünmür:** "Həmin dairədə həm partiyamızın, həm də şəxsən özümün elektoratımız var. Əvvəla, hələ ki dairənin deputatı mandatdan rəsmi imtina etməyib və orada yeni seçkilər təyin edilməyib. İkincisi, mən 2005-ci ildən bir neçə seçkidə şəxsən iştirak etmişəm, ölkədə seçkilərin ədalətli keçirilmədiyinin şahidi olmuşam. Bu vəziyyət yenidən seçkidə iştirak etmək qərarını verməyə imkan vermir. Seçkilər olacağı halda ədalətli keçiriləcəyinə inamım yoxdur. Ona görə də vaxtilə namizəd olduğum və seçki kampaniyası apardığım dairədə yeni seçkilərdə iştirak etməyi düşünmürəm. 2005-ci il parlament seçkilərində mən ADP, Müsavat və AXCP-nin yaratdığı "Azadlıq" seçki blokunun 14 saylı dairədən vahid namizədi idim. Məlumdur ki, o dövrdə "Azadlıq" bloku çox güclü müxalifət bloku idi. Məndən başqa 14 namizəd də var idi. Deputatlığa namizədlərin qeydiyyatının başa çatmasına 3-4 gün qalanda Yeni Azərbaycan Partiyasından Mehriban Əliyevanın namizədliyi həmin dairədən irəli sürüldü. Bu zaman namizədlərin 12 nəfəri namizədliyini geri götürdü. Seçkidə sona qədər mən, Mehriban Əliyeva və daha iki nəfər iştirak etdik. MSK-nın son nəticələrində mənə 2000-ə yaxın səs yazmışdılar".

❑ **Etibar SEYİDAĞA**

# Manqurt əlində mandat



**Xalid KAZIMLI**

**Mərhum yazıçı Çingiz Aytmatov belələrinin adını yaxşı qoymuşdu: Manqurt. Adamın adı Yoloman idi, düşmənlər onu əsir edib beynini qurutmuş, anasını, millətini tanımayacaq, yad sayacaq məxluqa çevirmişdilər.**

Manqurtluq əqli şikəstlikdir.

Manqurta nifrət etmək olar, amma gərək onun halını da anlayasan. O, uşaqlığından belə böyüyüb.

Onun beynini yuyublar, daraldıblar, kəmağıl ediblər, şüurunu inkişaf etməyə qoymayıblar, instinktlərlə hərəkət edən canlıya çeviriblər.

Manqurtlar düzələn, islah olunan deyillər, necə tanınıblarsa, sona qədər də elə olacaqlar.

Bu baxımdan, hərdən mənsub olduğu milləti, yəni əslini danan, tanımayan adamların nə vaxtsa islah olunacağını gözləmək absurddur.

Onları Yolomandan fərqləndirən əsas cəhət isə odur ki, bizim manqurtlar savadlıdırlar, xeyirlərini yaxşı bilirlər, anlayırlar ki, öz xalqlarına qarşı danışmaları yadellilərin xoşuna gələcək.

Milli manqurtların orda-burda, daldada-bucaqda dediklərini, millətin adını danmalarını ürəyə salmaq olmaz. Nə deyirlərsə, desinlər. Onsuz da bu cür adamların ağzını bağlamaq mümkün deyil.

Ancaq adına təşər-təşər "millət vəkili" deyilən şəxslər, Milli Məclisin deputatları bu ritorikaya uyanda məsələ dəyişir.

Onların nə cür seçildiyini hər kəs yaxşı bilir. Bununla belə, bu cür danışıq o manqurtların mandatına uyğun deyil. Bu adamların milləti təmsil edəcəkləri yerdə millətin ünvanına təmsil (şeir növü) oxumaları xalqda haqlı narazılıq doğurur.

Ümumiyyətlə, bir etnik kimliyin adının müzakirəsi elə məsələdir ki, dartışma, mübahisə mövzusu ola bilməz.

Bir millətin kimliyini müəyyən edən ən başlıca meyar onun dilidir. Əksər millətlərin çox şeyi *(dərisinin, saçının rəngi, boyunun, gözünün, burnunun ölçüləri və s.)* eyni ola bilər, amma dil hər bir etnik qrupu digərindən fərqləndirir.

Bizim dilimiz türk dilidir. Anadoluda, Borçalıda, Moldovada, Dərbənddə, Makedoniyada, İraq və Suriyada yaşayan türklərdən heç bir fərqimiz yoxdur. Bütün antropoloji göstəricilərimiz də uyğundur, eyni dildə də anlaşırıq. Ortada müəyyən ləhcə, dialekt fərqləri də var. Bu da təxminən bir ordubadlı ilə bir şəkilinin danışıq dilinin arasındakı fərq qədərdir.

Belədirsə, zaman-zaman qabaran "yox, azərbaycanlılar türk deyil" isterikasının mənası nədir. Türk deyiliksə, kimik?

Esperanto adlı süni, ordan-burdan yığıb-yığışdırma bir dil var, bilirik. Bəlkə "azəraycanlılar türk deyil" deyə yaxa cıranlar bizim esperanto millət olduğumuz qənaətindədir?

Deyəsən, məhz belədir, elə düşünürlər. Bu isə artıq millətə düşmənçilik etmək, ona qarşı xain mövqedə durmaqdır. Çünki onlar bu ifadəylə bizi "gənc, sonradan əmələgəlmə millət" hesab edən "qədim millət"lərə yarınırlar.

İndi Arif Rəhimzadə dediklərini danır, "mən elə deməmişəm, fikirlərim qərəzli şəkildə təhrif olunub" deyir. Görünür, o, aşağılarla yanaşı, yuxarılardan da təzyiqinə məruz qalıb.

Amma biz onu da, Araz Əlizadəni də çoxdan, ötən əsrin 90-cı illərindən tanıyırıq. O vaxt onlar nə danışırdılar, necə danışırdılar, hansı məsələlərdə nə cür mövqe tuturdular, hamımıza bəllidir.

Araz Əlizadə elə o vaxt da "türk" kəlməsini yaxınına buraxmırdı, "azərbaycançılıq" deyib durmuşdu.

Arif Rəhimzadə isə parlamentin iclaslarında "düşünürəm kin", "deyirəm kin, "hesab edirəm kin" deyə-deyə, həmişə yalan-yanlış şeylər düşünür, millətin ümdə maraqlarının ziddinə danışırdı. O vaxt da onun dilinə düz söz gəldiyi yox idi. Adam bütün varlığı ilə müstəqil Azərbaycan dövlətinə, demokratiyaya qarşıydı və bunu gizlətmirdi.

Rəhimzadənin bəxti onda gətirdi ki, AXC-Müsavat hakimiyyəti yumşaq oldu, demokratik prinsiplərə önəm verməyə çalışdı, repressiya maşınını işə salıb belələrinin üstünə sürmədi. Yoxsa Rəhimzadə parlamentdə və ondan kənarda apardığı antidemokrtik, pozucu fəaliyyətə görə cəzasız qala bilməzdi.

Ancaq belələrinin müqavimətinin xeyri yoxdur. Xalq artıq özünü də tanıyır, əslini-nəslini, adını da bilir.

# Novruzda siyasilərdən kimlər azadlığa çıxa bilər...

## Vəfa Məmmədova: "Hər il bir neçə siyasi məhbus azad olunur, tək İlqar Məmmədovdan başqa..."

**Martda əfv sərəncamı imzalanacağı artıq dəqiqləşib. Martın 17-də dövlətdə axırıncı iş gününün olduğunu nəzərə alsaq, çox qısa zamanda bu sərəncamın şahidi olacağıq. Hazırda müzakirə edilən məsələlərdən biri də bu əfvə siyasilərdən kimlərin düşəcəyi ilə bağlıdır.**

Həbsdə olan bir çox siyasi fəal var ki, əfv siyahısında adlarının olması üçün nəzərdə tutulan bütün kriteriyalara cavab verirlər. Onlardan bir neçəsinin adını çəkmək olar; Seymur Həzi, Məmməd İbrahim, Elvin Abdullayev, Asif Yusifli, Zeynalabdin Bağırzadə, NİDA-dan İlkin Rüstəmzadə və Əbdül Əbilov, REAL sədri İlqar Məmmədov və sair. Qarşıda imzalanacaq əfv sərəncamı ilə bu şəxslərin azadlığa buraxılacağına olan ümidlər kifayət qədər çoxdur.

**REAL sədrinin həyat yoldaşı Vəfa Məmmədova əfvə ümid etmədiyini söylədi:** "İlqarla keçən həftə görüşdüm. Vəziyyəti yaxşıdır. Əfv barədə bir söz deyə bilmərəm. Elə də böyük ümidimiz yoxdur. Hər il bir neçə siyasi məhbus azad olunur, tək İlqardan başqa. Artıq 4 ildir bu belə davam edir. Ona görə də ümidlərimiz yoxdur".



**Səidə Qocamanlı: "Siyahımızda olan 27 nəfər azadlığa buraxılacaq"**

**Əfv Komissiyasına 27 nəfərlik siyahi təqdim edən İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı bunları dedi:** "Əfvə kimlərin düşməsi cənab prezidentin səlahiyyətində olan məsələdir. Bizim siyahıda olanlar cəzalarının böyük hissəsini çəkiblər. Gənclər var ki, onların həyatları sınmasın deyə azadlıqlarını xahiş etmişik. Bütün nüansları nəzərə alıb, 27 nəfəri seçmişik. Məncə, müsbət nəticə gözlənilir. Hər halda, bir az gözləyək, düşünürəm ki, ötənilki Novruzda olduğu kimi, bu dəfə də sevinəcəyik. Ötən il kifayət qədər şəxslər azad olundu. Əfv sözü çox məsuliyyətli bir sözdür. Bu, humanizm, insanpərvərlikdir. Bayramımızın özü də məhz buna yüklənib. Mənə elə gəlir ki, siyahımızda olan 27 nəfər azadlığa buraxılacaq. Bizim siyahı nə 160, nə də 120 nəfərlik deyil. Kifayət qədər çox şəxsin adlarını siyahılara salmaqla düşünürlər ki, işlər düzələcək. Onların düşüncələri tam yanlışdır. Hamısını bir-bir yoxlayıb seçmişik ki, onlar real olaraq azadlığa buraxıla bilərlər".

❑ **Cavanşir ABBASLI**

**Azərbaycan Beynəlxalq Bankının keçmiş sədri Cahangir Hacıyevin əfv olunması üçün ərizə yazması xəbəri yayılıb. Məlumata görə, sabiq bankir səhhəti ilə əlaqədar əfv edilməsini istəyir. C.Hacıyevin vəkili Aqil Layıcov yayılan məlumatları şərf edərkən demişdi ki, müvəkkili məhkəmənin istənilən mərhələsində əfv oluna bilər.**

# "Cahangir Hacıyev indiki mərhələdə əfvlə azad oluna bilməz"

## Hüquq müdafiəçisi deyir ki, o, hazırkı məhkumluq statusu ilə amnistiya aktı ilə azadlığa çıxa bilər...

İnsan Hüquqları üzrə Birgə İşçi Qrupun üzvü, hüquq müdafiəçisi Səadət Bənəniyarlı C.Hacıyevin əfv oluna bilməsi ehtimalını bölüşmür.

Hüquq müdafiəçisi deyir ki, məhkəmə qərarı apelyasiya instansiyasının qərarından sonra qüvvəyə minir. Hazırda Cahangir Hacıyevin işi üzrə apelyasiya instansiyasının qərarı yoxdur. Buna görə də onun əfv olunması ehtimalı çox azdır, mümkün deyil: "Ola bilər ki, iş üzrə apelyasiya instansiyası hökmü ləğv edilsin. Başqa bir qərar çıxarılsın. Düşünürəm ki, Cahangir Hacıyevin əfv məsələsi həllini tapmayacaq".

**O qeyd edib ki, əfv ərizələri vermiş məhkumların sağlıq, ailə vəziyyətləri nəzərə alınır. Cəzasını çəkdiyi dövrdə özünü necə aparması, cəzasının neçə ilini çəkməsinə diqqət yetirilir:** "Azərbaycanda bu günə qədər barəsində məhkəmə hökmü qüvvəyə minməmiş təqsirləndirilən şəxsin əfv edilməsini xatırlamıram. Əgər belə president yaranarsa, bu gün məhkəməsi keçirilən sabiq MTN əməkdaşları da belə ərizələrlə müraciət etməyə başlayarlar".

**S.Bənəniyarlı Cahangir Hacıyevin amnistiya aktı imzalanacağı təqdirdə, azad oluna biləcəyini istisna etmədi:** "Amnistiya aktı olanda xüsusi olaraq maddələr yazılır, əgər belə bir akt olarsa, Cahangir Hacıyevin müraciəti nəzərə alına bilər".

**Əfv Komissiyanın üzvü, "Konstitusiya" Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev bakipost.az-a bildirib ki, Cahangir Hacıyevin əfv olunması üçün ərizə yazmaq kimi hüquqi əsasları yoxdur:**

"Cahangir Haciyevin cəzası uzunmüddətli olduğu üçün o, əfvlə bağlı müraciət edə bilməz. Əfv Məsələləri üzrə Komissiyanın əsasnaməsinə görə, şəxs əfvlə bağlı o zaman müraciət edə bilər ki, onun cəzası əgər böyük ictimai təhlükəli törətməyən cəzadırsa, yəni ona texniki müddət nəzərdə tutulan cəza verilibsə, o dərhal müraciət edə bilər. Az ağır cinayətlərə görə məhkum olunmuş şəxslər də cəzasının üçdə birini çəkdikdən sonra, xüsusilə də ağır cinayətlərdə cəzasının yarıdan çoxunu çəkdikdə əfvlə bağlı müraciət edə bilər. Amma Cahangir Hacıyevin cəzası uzunmüddətlidir. Bu baxımdan onun əfvlə bağlı müraciət etmək hüququnun hələ


Cahangir Hacıyev

əsasları yaranmayıb. Ona görə də o, müraciət etməyib. Yəqin ki əsaslar yaranmadığı üçün müraciət etməz. Xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxslər yalnız cəzasının yarıdan çoxunu çəkdikdən sonra onların əfv üçün müraciət hüququ yaranır. Komissiyanın əsasnaməsinə görə belədir. Bu səbəbdən indiki hallarda bu şəxslərin müraciət edəcəyini düşünmürəm".

Qeyd edək ki, C.Hacıyev 2015-ci il dekabrın 5-də həbs edilib. Onun barəsində Nərimanov Rayon Məhkəməsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. C.Hacıyev və digər 7 şəxsin - Mərkəzi filialın direktorları işləmiş Y.Ələkbərov və A.Sultanov, Mərkəzi filialın müdiri işləmiş İ.Abdullayev, bankın inzibati binalarının mühafizəsini həyata keçirən "İnter Security" MMC-nin baş direktoru İ.Hüseynov, bankın Nəqliyyat filialının direktoru işləmiş K.Orucov, bankın Nərimanov filialının direktoru işləmiş, hazırda "AFB Bank" ASC-nin Müşahidə Şurasının sədri olan M.Cahangirov və Bakı Fındıq Zavodunun direktoru işləmiş A.Cavadovun Cinayət Məcəlləsinin 179.3.1, 179.3.2 (mütəşəkkil dəstə tərəfindən külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 309.2 (vəzifə səlahiyyətlərini aşma ağır nəticələrə səbəb olduqda), 313-cü (vəzifə saxtakarlığı), 228.1 və 228.4-cü (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə) maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işinin istintaqı yekunlaşaraq təqsirləndirilən şəxslər, onların müdafiəçiləri iş materialları ilə tanış edilmiş və iş üzrə ittiham aktı Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən iyulun 19-da təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə C.Hacıyev 15 il, Y.Ələkbərov 8 il 6 ay, K.Orucov 7 il 6 ay, İ.Hüseynov 7 il 23 gün, M.Cahangirov 7 il 6 ay, A.Cavadov 10 il 11 ay, A.Sultanov 7 il 6 ay və İ.Abdullayev 6il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

❑ E.MƏMMƏDƏLİYEV

# "Martın sonuna doğru dollar kəskin bahalaşa bilər"

## Dollar-manat cəbhəsində əks proses başladı

**Dollar manata qarşı tədricən möhkəmlənməkdə davam edir. Mərkəzi Bankın martın 3-nə açıqladığı məzənnəyə əsasən USD/AZN rəsmi məzənnəsi 1,7548 səviyyəsində müəyyən olunub. Qeyd edək ki, martın 2-də bu rəqəm 1,7515 manat təşkil edirdi. Ekspertlər isə dolların bundan sonra da möhkəmlənməkdə davam edəcəyini bildirirlər. Buna həm beynəlxalq amillər, o cümlədən ABŞ-ın Federal Ehtiyatlar Sisteminin gözlənilən iclası, həm də daxili amillər təsir edir.**



**İqtisadçı ekspert Natiq Cəfərli** də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, dollar-manat münasibətləri hər zaman həm xarici, həm də daxili maillərdən asılı olub: "Son günlərdə baş verənlər bu asılılığı daha da gücləndirir. Bu da Amerikada FED-in uçot dərəcələrini artıracağı ehtimalının 80 faizdən yuxarı olması ilə əlaqədardır. Dünyada dollar sürətlə bahalaşır. Dollar indeksi son həftələrin ən yüksək səviyyəsindədir, artıq dünyada 103 punkta qədər bahalaşıb. Bu çox ciddi bir göstəricidir. Mart ayının 15-də FED-in uçot dərəcələrini artırması ehtimalı ekspertlər tərəfindən 86 faiz qiymətləndirilir. Bu da dünyada dolları bahalaşdırır. Təbii ki, Azərbaycana da təsirsiz ötüşmür. Dolların bahalaşması neftin qiymətinə də təsir edir. Dünən neftin qiymətində kəskin eniş oldu, dünya birjalarında qara qızıl 2 faizdən çox dəyər itirdi. Bu gözləntilər təbii ki, ətraf ölkələrə, o cümlədən Azərbaycana da təsir edir. Bu, beynəlxalq aləmdə baş verən proseslərdir".

**Ekspertin sözlərinə görə, mart ayı Azərbaycan manatı üçün ağır keçəcək:** "Daxili proseslər haqqında bundan öncəki açıqlamalarımızda da demişdik ki, mart ayı həmişə valyuta üçün ağır ay olub. Bayramlarla əlaqədar tələbatın artması və ölkəyə gətirilən məhsulların həcminin artması ilə əlaqədar valyutaya tələbat artır. Həm də Novruz bayramı ilə bağlı 9 gün istirahət günü verilib, minlərlə Azərbaycan vətəndaşı ən azı yaxın ölkələrə getmək istəyəcək. Buna görə də valyutaya tələbat artacaq. Həm daxili, həm də xarici amillər manata basqıları artırır. Ona görə də düşünürəm ki, ayın son həftələrində dollar yenidən bahalaşa bilər.

Mərkəzi Bankın inzibati yolla məzənnəni 1.92 -dən yenidən 1.71-ə salması, sonradan 1.75-ə qədər qaldırması o qədər də yaxşı hesablanmış qərarlar deyil. Əksinə, belə kəskin oynamalar həm banklar üçün, həm də iş adamları üçün ciddi problemlər yaradır. Ona görə də düşünürəm ki, yenidən mart ayında manatın addım-addım dəyərdən düşməsinin şahidi olacağıq. Dollar əvvəlki rekord hədlərə qədər bahalaşa bilər, 1 dollar 1.92-1.93 AZN ola bilər. Əgər martın 15-də FED faizləri artırsa, bu dəyərdəndüşmə prosesinin sürəti arta bilər. Manat 1.90-1.95 koridoruna qədər qayıda bilər".

**İqtisadçı ekspert Vüqar Bayramov isə dolların məzənnəsinin bir ay müddətində 1.75 ətrafında qalmasına baxmayaraq, qiymətlərin ucuzlaşmamasına münasibət bildirdi:** "Bir ay öncə manat dollara nisbətən möhkəmlənməyə başladı. Belə ki, fevralın 3-də dolların kursu əvvəlki günə nisbətən 1.9200-dən 1.9110-dək dəyişdi. Nəticədə, manat bu günə 1.7548 məzənnəsi ilə daxil oldu. Xatırlayırsınızsa, manat möhkəmlənən və ya dollar manata nisbətən ucuzlaşan zaman sahibkarlar 1 aydan sonra qiymət azalmalarının olacağını demişdilər. 1 ay arxada qaldı, amma hələ də qiymətlərdə eniş yoxdur. Xüsusən də idxal olunan malların qiymətinin enməməsi və ya endirilməməsi təəccüb doğurmaya bilməz. Əvvəlki günlərdə anbarlarda məhsulların olması bəhanə gətirilirdisə, artıq bu arqument də işləmir. Digər tərəfdən, xeyli sayda ərzaq məhsullarının saxlama müddəti günlərlə ölçülür. Maraqlıdır ki, dollar manata nisbətən möhkəmlənən zaman məhsulların qiymətini artıran sahibkarlar indi nədənsə qiyməti aşağı salmaq haqda düşünmürlər. Mart ayının bayramlar ayı olduğunu da nəzərə alsaq, sahibkarların qiymət endirimlərində maraqlı olmayacağını proqnozlaşdırmaq çətin deyil. Hətta əvvəlki illərin təcrübəsi göstərir ki, bayramlar zamanı qiymətlərin azalması deyil, artımı müşahidə edilir. Bazar qaydaları çərçivəsində qiymət monitorinqlərinin gücləndirilməsinə ehtiyac var ki, qiymət azalmaları gözləyən istehlakçılar, əksinə, yeni qiymət artımları ilə üzləşməsinlər".

❑ Nərgiz LİFTİYEVA

# "Mənəviyyat adamlarının həbsdə yox, xalq arasında olmasına ehtiyac var"

## Qurban Cəbrayıl: "O, dövlətçiliyə, mənəvi-əxlaqi dəyərlərə sadiq bir insandır"

**"Hacı Sərdarın həbsi və digər belə repressiv hərəkətlərin səbəbi vəzifə səlahiyyətlərindən sui-istifadə edən, rəhbəri olduqları rayonları ata mülkü sayaraq xalqın, dövlətin əmlakını çapıb-talayan "kiçik padşahların", sair məmurların öz qanunsuz əməllərini ört-basdır eləmək cəhdlərindən başqa bir şey deyil".**


Qurban Cəbrayıl

Bunu jurnalist Qurban Cəbrayıl tanınmış ilahiyyatçı, Azərbaycan Ruhanilər Məclisinin üzvü, "Maidə" saytının təsisçisi və baş redaktoru Sərdar Hacıhəsənliyə qarşı əsassız təzyiqlərə münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, daimi xoflanmadan irəli gələn belə addımlar çıxış yolu olmamaqla yanaşı, tamamilə əks-effekt verir, böyük ictimai qınaqla nəticələnir: "Məsələn, qanuni sosial haqlarını tələb edən sakinlərə, azad fikirli insanlara - dindarlara, bloggerlərə, jurnalistlərə yönəlik zorakılıqların böyük bir hissəsinin cənub bölgəsinin payına düşməsi ölkədə hər kəsə aydındır və bunun köklərinin araşdırılmasına ciddi ehtiyac var".

**Qurban Cəbrayıl baş verənlərin Azərbaycanın beynəlxalq imicinə mənfi təsir göstərəcəyindən narahatlığını da dilə gətirib:** "Şeyx Sərdar təkcə ölkəmizdə yox, regionda, müsəlman aləmində də nüfuz sahibidir; Beynəlxalq İslam Oyanışı Təşkilatında iki təmsilçimizdən biridir. Onun azadlığının əsassız şəkildə məhdudlaşdırılması nə ötənilki multikulturalizm layihələri kontekstində milli ruhaniyyətin mənafeyinə cavab verir, nə də 2017-nin İslam Həmrəyliyi ili elanı ilə bir araya sığır".

**O, ümumiyyətlə, ibadət əhlinin, dindarın Cümə namazında iştirakına görə tutuqlanmasını absurd sayır:** "Mənim Sərdar Babayevlə yaxından tanışlığım yoxdur. Sadəcə, bir neçə dəfə müxtəlif tədbirlərdə görüşmüşük və çıxışlarını dinləmişəm. Olduqca məntiqli, savadlı, dünyagörüşlü qardaşlarımızdandır, yüksək natiqlik qabiliyyətinə malikdir. Rəhbərlik etdiyi sayt da dövlətçiliyə, mənəvi-əxlaqi dəyərlərə sadiqdir; bütün sahələr üzrə informasiyalar, təhlillər verir, dünyəviliklə yanaşı, dini təqvimi də əsas tutur, İslam maarifçiliyi, müqəddəsatın mövlu-du-şəhadəti barədə maraqlı yazılarla çıxış edir. Yəni belə başa düşürəm ki, missionerlərin at oynatdığı, ailə institutuna qarşı hücumların reallaşdığı, gənclərin zərərli vərdişlərə qurşandığı, intiharların baş alıb getdiyi, cəbhədə azğın erməni təxribatlarının vüsət aldığı indiki şəraitdə Hacı Sərdarın, Hacı Mövsümün, Hacı Abgülün, Seyid Fəramizin, Ruhullah Axundzadənin və digərlərinin zindanlarda yox, xalq arasında olması daha zəruridir! Allah tezliklə qapılarını açsın!"

❑ XƏZƏR

**Vaşinqton səfərimiz zamanı əsas dayanacaqlardan biri Azərbaycanın Amerikadakı səfirliyi oldu. Ölkəmizin Amerikadakı fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanov bizi səfirliyin binasında qonaq edib, geniş müsahibə verdi. "Yeni Müsavat" müsahibəni təqdim edir.**



# "Amerikaya gələn azərbaycanlılar iki şeyi unutmamalıdır"

## Səfir Elin Süleymanov: "Son illər ABŞ-dakı erməni diasporu siyasi baxımdan xeyli zəifləyib"

## "Amerikalı tərəfdaşlarımıza imkan verməliyik ki, yeni siyasəti təmin edib, münasibətləri tənzimləsinlər"





***- Elin müəllim, öncə sizi Amerikada xoş gördük. Mən Amerika səfərim boyunca bir çox həmyerlimizlə söhbət etmişəm və müsahibələr seriyası da davam edəcək. Amma öncə sizdən statistika barədə məlumat almaq istərdim. Amerikada yaşayan azərbaycanlıların sayı nə qədərdir?***

- Biz, ümumiyyətlə, təsəvvür edirik ki, 100-200 min arasıdır. Bura güneyli qardaşlarımızı da əlavə etsək, rəqəm daha da yüksək olar. Amma Amerikada yaşamağa gəlib, konsulluğun qeydiyyat şöbəsində qeydiyyata düşən vətəndaşlarımız çox deyil. Ümumi statistikanı saxlamırıq, çünki say dəyişir. Amma burda kifayət qədər azərbaycanlı var. Nyu-Yorkda, Vaşinqtonda, Hyustonda, Kaliforniyada daha çox məskunlaşıblar.

***- Amerikada yaşayan azərbaycanlılar gəliş səbəbləri etibarilə Avropaya gedənlərdən fərqlənirlər. Ən azı, ilkin müşahidələrimiz bunu deyir. Siz bu durumu necə təhlil edərdiz: azərbaycanlıların yaşamaq üçün Amerikanı seçmələrinin səbəbi nədir?***

- Burda müxtəlif səbəblər var. Təhsil dalınca, iş üçün gələnlər var. Eyni zamanda Sovet İttifaqı dağılandan sonra çoxsaylı vətəndaşlar iqtisadi vəziyyətlə bağlı bura köçüblər. Biz çox istərdik ki, Amerikaya köçən azərbaycanlılar hər zaman uğur qazansınlar, Vətənimizi burda layiqincə təmsil etsinlər. Ona görə də biz eşidəndə ki, hansısa həmyerlimiz məşhur bir universitetə daxil olub və ya karyerasında uğur qazanıb, bu, bizi çox qürurlandırır.

***- Az öncə dediniz ki, konsulluğun qeydiyyat şöbəsində qeydiyyata düşən azərbaycanlılar çox deyil. Bəs bu qeydiyyat hansı məqamlar üçün mütləqdir? Yəni qeydiyyata düşmək burda yaşayan azərbaycanlılara hansı məqamlarda yardımçı olur?***

- Birincisi, Allah eləməmiş hansısa fövqəladə hal olanda bizim də xəbərimiz olsun ki, burdakı azərbaycanlılarla əlaqə yarada bilək. Ya Vaşinqtondakı konsulluqda, ya da Los-Ancelesdəki konsulluqda qeydiyyatdan keçsinlər. Bundan başqa, kiminsə pasportunun vaxtı keçəndə və ya etibarnamə lazım olanda bizə müraciət edirlər. Bunun üçün qeydiyyatda olmaq mütləqdir. Son zamanlar daha çox xoş işlərlə bağlı müraciət edirlər. İlk növbədə doğum şəhadətnaməsi almaq üçün. Bu da bizi çox sevindirir.

***- Son aylar Amerika dünyanın gündəmindədir. Necə düşünürsüz, azərbaycanlılara yeni Tramp Amerikası nə vəd edir?***

- Hələ ki nəsə demək tezdir. Biz hələ ki aydın şəkildə, spesifik yanaşmalarla tam tanış deyilik. Azərbaycana qarşı yanaşması necədir, Azərbaycanla spesifik kim işləyəcək. Biz amerikalı tərəfdaşlarımıza imkan verməliyik ki, yeni siyasəti təmin edib, münasibətləri tənzimləsinlər. Mən, ümumiyyətlə, ümidliyəm. Yersiz nikbinlik göstərmək istəməzdim, amma daha praqmatik yanaşma Azərbaycan üçün faydalı olacaq. Düşünürəm ki, Amerikanın xarici siyasəti daha praqmatik olsa, prosesin müsbət nəticələri də özünü göstərəcək.

***- Amerikaya gəlmək üçün viza alanda müşahidələrim onu göstərdi ki, seçim prosesi olduqca sərt aparıldı. Hesab edin ki, 30 nəfərdən cəmi 5-6-na müsbət cavab verildi. Bu sərtləşmənin səbəbləri nədir? Azərbaycan da Amerika üçün yasaq ölkələr siyahısında ola bilərmi?***

- Mən elə düşünmürəm. Azərbaycanın ABŞ-la əməkdaşlığı yüksək səviyyədədir. Mən bu günə qədər viza məsələsi ilə bağlı hər hansı şikayət və narazılıq eşitməmişəm. Ümumiyyətlə, Amerikanın belə bir yanaşması var ki, vizanı həmin şəxsin fərdi xüsusiyyətlərini əsas götürərək verir. Şəxsin özünün qayıtmaq şərtləri, Azərbaycanda yaşayış şərtləri - mülkü, qayıtmaq üçün əsaslı səbəbləri varmı-nəzərə alınır. Hər bir ölkənin səfirliyinin viza şərtləri var. Amma biz sizin dediyiniz məqamları və qeydləri nəzərə alarıq. Amerikan tərəfdaşlarımızla danışarıq. Biz Amerikanın Azərbaycandakı səfirliyinin bizim vətəndaşlara qarşı münasibətini hər zaman nəzarət altında saxlayırıq. Onlar da bizə konkret məsələlərlə bağlı müraciət edirlər. Aramızdakı sağlam, işgüzar münasibətlər bu məsələləri müzakirə etməyə imkan verir.

## "Azərbaycan Amerikanın viza rejimini sərtləşdirdiyi dövlətlərdən deyil"

Amma biz bu məsələdə problem görməmişik. Amerikanın miqrasiya siyasətinin yeni mərhələyə qədəm qoyması, bu sahədə dəyişikliklər etməsi görünəndir. Azərbaycan isə bu məsələdə Amerikanın viza rejimini sərtləşdirdiyi dövlət deyil. Onlar başa düşürlər ki, Azərbaycan güclü dövlətdir. Adətən bizə bu məsələ ilə bağlı şikayətlər çox gəlməyib. Amerikaya girişi yasaqlanan 7 ölkə vətəndaşları ilə bağlı məsələdə də spesifik yanaşma var. Söhbət təkcə həmin ölkələrin müsəlman olmasından getmir. Söhbət həmin dövlətlərin pasportlarının nə qədər güvənli və həqiqi olmasıdır. Bu, ciddi yanaşmadır. Amma birinci sərəncamın icrası dayandırılıb. Bugünlərdə yeni sərəncam veriləcək.

***- Amerikada yaşayan azərbaycanlılar nə dərəcədə bir-biri ilə əlaqəlidirlər? Münasibətlər sıxdır, bir araya gəlib, bayram və matəm günlərini birgə qeyd edirlərmi?***

- Sizin bura gəlişiniz Xocalı faciəsinin ildönümü ərəfəsinə təsadüf edir. O tədbirlərdən bir neçəsində iştirak etmisiz. Görmüsüz ki, azərbaycanlılar bu kədərli tarixi anım və etiraz aksiyaları şəklində qeyd edirlər. Bu, hər il belədir. Nyu-Yorkda, Bostonda, Vaşinqtonda, Hyustonda, San Fransiskoda, eləcə də digər şəhərlərdə. Bu, Azərbaycan diasporasının Amerikadakı fəaliyyətinin gücünü göstərir. Bayaq da danışdıq, burda yaşayan azərbaycanlılarımız sayca az deyil. Amma bəzi hallarda pərakəndə olmaları diqqət çəkir. Halbuki ortaq, gücü bir yerə qoyub, aksiyalar keçirsələr, ermənilərdən qat-qat güclü olarlar. Dostlarımızı bir yerdə görmək istərdik.

***- Amerikadakı erməni diasporuna toxunduz. Ermənilər Amerikada nə qədər fəaldılar? Bərabər şərtlər altında olmamamızın səbəbləri sırasında din faktoru və onların daha öncədən bu torpaqlarda məskunlaşması göstərilir. Siz durumu necə qiymətləndirirsiz?***

- Mən uzun müddət Los-Ancelesdə baş konsul işləmişəm. Bu şəhər müəyyən mənada Ermənistanı xatırladır, çünki orda ermənilərin sayı çoxdur. Amma nəzərə almalıyıq ki, Ermənistan diasporu uzun müddətdir ki, Amerikada fəaliyyət göstərir. Eyni zamanda onlar daha mütəşəkkildir. Bu gün də o mütəşəkkillik baxımdan daha güclüdür. Amma eyni zamanda son illər siyasi baxımdan erməni diasporunun zəifləməsi də faktdır. Birinci səbəb odur ki, Ermənistan güclü və müstəqil dövlət deyil. Regionda strateji baxımdan heç bir xeyir verə bilmir. Bu isə onları Azərbaycanla müqayisədə xeyli geri salır. Onlar hər nə qədər diasporun gücü ilə öyünməyə, irəli getməyə çalışsalar da, bu, Ermənistanın heç bir sahədə potensialı və nüfuzu olmaması faktını unutdurmur. Bu, ciddi detaldır. Eyni zamanda Türkiyənin strateji əhəmiyyəti də öz təsirini göstərir. Ermənistanın strateji baxımdan faydasız məkan olduğunu fakt kimi sübut edir. Diaspora baxımdan daha da mütəşəkkil olmalıyıq. İşimiz çoxdur.

***- Azərbaycanlıların Amerika cəmiyyətinə inteqrasiyası necədir? Bu proses necə gedir?***

- Bir tərəfdən Vətəndən kənarda yaşayan insan üçün yeni mədəniyyət, cəmiyyətə girmək o qədər də asan deyil. Amma mən azərbaycanlıların bu məsələdə o qədər də problem yaşadığını görməmişəm. Bizimkilər çevik, zəhmətkeş və yeniliklərə öyrəşməyə meyllidilər. Bundan başqa, Amerika cəmiyyəti də müxtəlifliyi sevir, rəngarəng cəmiyyətdir. Burda azərbaycanlıların da yeri var. Bura gələn azərbaycanlılar iki şeyi unutmamalıdır: Azərbaycan icması ilə münasibətləri saxlasınlar və bura gələndə məqsədlərinin nə olduğunu bilsinlər, hazır olsunlar. Amerika cəmiyyəti dil, yaşayış, mədəniyyət baxımdan tələbkardır. Bəzən bura köçən azərbaycanlılar deyirlər ki, burda yaşaya bilmirəm. Sonra da məlum olur ki, dil bilmirlər (gülür). Təbii ki, cəmiyyətə inteqrasiyanın əsas şərti dili bilməkdir. Kimsə bura köçüb, mentalitetdən şikayətlənirsə, bura köçməməlidir. Amma sözsüz ki, vətəndən uzaq yaşamaq asan deyil. Mən özüm illərdir xaricdə yaşayıram. Sözsüz ki, Vətən insanı çağırır. Azərbaycanın ruhu, atmosferi özəldir. Azərbaycanlı olmaq insana fərqli bir qürur verir.

## "Kimsə bura köçüb, mentalitetdən şikayətlənirsə, bura köçməməlidir"

## "Bura gələn azərbaycanlılar iki şeyi unutmamalıdır: Azərbaycan icması ilə münasibətləri saxlasınlar və bura gələndə məqsədlərinin nə olduğunu bilsinlər, hazır olsunlar"



❑ Sevinc TELMANQIZI
❑ Vaşinqton, Amerika

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017



# Prezidentin mətbuat katibi

**Zamin HACI**
zaminhaci@gmail.com

"Birinə bax, fikir elə, birinə bax, şükür elə"
***(Azərbaycan ata sözü)***

**"Əgər söz azadlığına, azad fikirliliyə, fərqli mövqe nümayişinə təhlükə varsa, mən qıraqda sakitcə dayana bilmərəm. Təəssüf ki, bu gün burada belə təhlükə baş verir". Sizcə, bu sözlərin müəllifi kimdir? Mən dünən oxuyandan bəri əlimlə başımı tutub qalmışam. Bunları Gürcüstan prezidentinin mətbuat katibi Eka Mişveladze deyibdir. Orda "Rustavi-2" adlı müxalifyönümlü telekanal var. Bu kanalı hazırkı yiyələrindən alıb köhnə yiyəsinə veriblər, camaat da etiraz aksiyası üçün Ali Məhkəmənin və telekanalın ofisinin qarşısında toplaşmışdılar. Eka xanım da bu sözləri orada deyibdir. Təsəvvür edin, prezidentin mətbuat katibi elə həmin prezidentin hakimiyyətinin söz azadlığına təzyiqlərinə qarşı çıxır. Üstəlik, buna görə onu incidən olmur! Biz niyə ölmürük?**

Gürcüstan artıq demokratiya qatarına minib bizdən çox uzağa gedibdir, elə Avropaya azad "Şengen" vizası əldə etmələri də bunun sübutudur. Ancaq bu bir-iki günün uğuru deyil.

Bizi vaxtsız tərk etmiş unudulmaz dostumuz, vəkil İsaxan Aşurovun danışdığı bir əhvalat vardı. İsaxan bəy bunu 2003-cü ildə Gürcüstanda "qızılgül inqilabı" qalib gələndən sonra mənə danışmışdı. Şevardnadze prezident olan vaxtlar bir dəfə Kutaisiyə səfər edir, orda vəzifəli şəxslərlə görüşür, bu zaman salam verdiyi adamlardan biri - Kutaisi məhkəməsinin hakimi onun əlini rədd edir, deyir ki, mən korrupsionerlə salamlaşmıram. Təbii ki, Şevardnadze də sonra həmin hakimə heç nə eləmir. Bənzərini "Sınıq körpü"nün bəri üzündə təsəvvür eləməyə çalışın... O ərazidə ki, burda yerli ölçülərlə Şevardnadzeni nəinki korrpusioner adlandırmağa adamın dili gəlməzdi, hətta onu peyğəmbər elan edib, ətəyində namaz qılsaq az edərdik.

Keçən ay nüfuzlu Berlin kino festivalı bir gürcü filmi ilə açıldı. ("Girovlar" filmi, rejissor Rezo Qiqineişvili). Həmin film SSRİ vaxtı, 1983-cü ildə Gürcüstanda təyyarə qaçırılması olayı əsasında çəkilmişdi. O hadisə uğursuz nəticələnmişdi, milis qüvvələri basqın edib terrorçuları tutmuşdular. Bu zaman ölənlər olmuşdu. Daha sonra isə terrorçuları məhkəmə hökmü ilə güllələyib adsız məzarda basdırıblar. Kim yaxından maraqlansa, bu olayı Dato Turaşvili adlı gürcü yazıçısı "Cins dövrünün uşaqları" adlı romanında təsvir edib və bu romanı "Alatoran" nəşriyyatı dilimizə çevirib - tapıb oxuya bilərsiniz.

Sözümün canı nədir? SSRİ-dən qaçmaq, azadlığa çıxmaq üçün təyyarə ələ keçirməyə məcbur olmuş o cavanlar yetərincə imkanlı ailələrin uşaqları olub. Birinin atası hətta akademik idi. Həkim, aktyor, rəssam - özləri də bu peşələrin yiyəsi olub. İndi yenə keçək "körpünün bu üzünə" və bizim akademiklərin, varlıların uşaqlarının 1983-cü ildə nə iş gördüyünü yada salaq. Adam keçmək istəmir! Çünki hara baxırsan, yeyib-yatıb donuza dönmüş bir sürü manqurt görürsən. Əlbəttə, mən onların, ümumiyyətlə, heç kimin təyyarə qaçırtmasına yaxşı baxmıram, istənilən məqsədlə bu, pisdir, ağır cinayətdir. Ancaq adamlar komfortun içində yaşasalar da azadlıq haqda, türmə-dövlətdən qaçmaq haqda düşünüblər - bu, özü hörmətə layiqdir. Hələ mən onu demirəm ki, həmin gənclərə SSRİ-dən qaçmaq yolunu öyrədən, bir növ, "fikir ataları" yerli keşiş olubdur! SSRİ-də, 80-ci illərdə bizim mollalar yəqin ki, ən yaxşı halda "kimin dədəsinə yasin oxuyub 3 manat ala bilərik" düşünürdülər.

İntəhası, qonşun yaxşıdırsa, paxıllıqdan ölmək də lazım deyil. Ətrafımızda yetərincə murdar örnəklər var. Bunlardan ən pis gündə olanı Rusiyadır. Srağagün rusiyalı araşdırmaçı-blogger Navalnı baş nazir Medvedyevin qanunsuz villa və əmlakları haqda videolar açıqlamışdı, mən buna xeyli baxdım, sonra Medvedyevin klouna oxşar, bir az da imbesillik yağan fotosuna diqqət elədim. O boyda pis-yaxşı tarixi olan, dünya mədəniyyətinə ən azı "rus ədəbiyyatı" kimi şedevr bəxş etmiş xalq, imperiya gör necə karikaturların əlində qalıb.

Hərçənd bizdə kimisə təzə vəzifəyə təyin edəndə onun ilk və axarıncı intervüləri adətən elə Rusiya müxbirlərinə olur. Sanki Azərbaycanda media-zad yoxdur. *(Bunu göstərirlərsə sağ olsunlar - həqiqət dolayısı ilə də əzizdir)*. İndi fikirləşin ki, ora karikaturadırsa, biz hansı gündəyik?

Ya da heç fikirləşməyin. Yüz fikir bir borcu ödəmirmiş. Başqa biədəb ata sözü də var, bilənlər bilməyənlərə desinlər.

## Azərbaycan üçün ideal situasiya, düşmənin savaş xofu

**Qarabağ münaqişəsi zonasında gərginlik artmaqda davam edir. Əksər müşahidəçilərə görə, əsas səbəb işğalçı Ermənistanın rəhbərliyinin apreldəki parlament seçkiləri ərəfəsi cəbhədə hansısa uğur əldə eləmək və ötən ilin aprelindəki hərbi uğursuzluğu heç olmasa, bu yolla ictimai şüurda unutdurmaq cəhdi ilə bağlıdır. Ancaq artıq məlumdur ki, bu cəhdlər, o sırada son 26 fevral insidenti fiasko olub: təmas xətti bir santimetr də olsa, ermənilərin xeyrinə dəyişməyib.**



# Bakının "Sürünən müharibə" taktikası

### İşğalçının iflası: İrəvan bu varianta getsə...; Ermənistan savaşsız da çökdürülə bilər; **tanınmış analitik:** "Dünya Qarabağ probleminə o halda ciddi diqqət ayıracaq ki..."

Böyük ehtimalla, seçki gününə kimi, daha dəqiqi, ötən ilki aprel məğlubiyyətinin ildönümü yaxınlaşdıqca, düşmənin belə təxribatlarının sayı artacaq - həm də daha arxayın şəkildə. Ona görə ki, İrəvan rəsmiləri münaqişə zonasında Moskvanın - öz əsas havadarının genişmiqyaslı hərbi əməliyyatlarda maraqlı olmadığını yaxşı bilirlər. Apreldən sonra Ermənistana "İsgəndər" raket kompleksləri də müharibə eləmək üçün yox, Azərbaycanı müharibədən çəkindirmək və erməniləri sakitləşdirmək üçün verilib.

***

Yaranmış vəziyyətdən Azərbaycan üçün ən optimal yol - işğalçı Ermənistanı taqətdən salacaq, onu iqtisadi cəhətdən tam çökdürəcək, paralel surətdə onun hərbi itkilərini artıracaq siyasəti davam etdirməkdir. Söhbət öncəliklə düşmənin izolyasiyasını gücləndirməyə, onu bundan sonra da iri regional iqtisadi-kommunikasiya layihələrindən kənarda qoymağa yönəlik siyasi kursdan, habelə maliyyə-iqtisadi resursları minimal olan Ermənistanı silahlanma yarışına çəkməklə onu bir az da böhranlı vəziyyətə salmaqdan, nəhayət, İrəvanı işğal rejimini uzatmağa peşman etməkdən gedir.

Sadalanan proseslər fonunda təbii ki, Ermənistandan ölkədən miqrasiya daha sürətli şəkil alacaq. Təsadüfi deyil ki, ölkədən kütləvi köç Serj Sərkisyanın prezidentliyi dövründə ən böyük miqyas alıb. Aydındır ki, rəsmi İrəvan bu kimi proseslərin, daha dəqiqi, Azərbaycanın başlatdığı "passiv müharibə"nin hara apardığının yaxşı fərqindədir. *(Buna "sürünən savaş" da demək olar).* Axır vaxtlar İrəvan rəsmilərinin bəzi etirafları qənaətimizi təsdiq edir. Serj Sərkisyanın Xarici İşlər Nazirliyində təşkil edilən dünənki toplantıda etdiyi çıxışı zamanı "İrəvan və Stepanakert (Xankəndi-red.) müharibə istəmir" sözləri eyni qəbildən sayıla bilər.

Bəlli məsələdir ki, indinin özündə öz ordusuna çağırışçı problemi yaşayan Ermənistan böyük müharibə zamanı, sadəcə, xəritədən yox olacaq, simvolik dövlətçiliyini də itirəcək. Çünki belə müharibəni aparmağa onun nə iqtisadi, nə də insani resursları var. Sərkisyanın sön açıqlaması şübhə yox ki, ən əvvəl bu reallığın dərkindən irəli gəlir - hər nə qədər özündənrazı açıqlamaları da olsa...

***

**Konflikt ətrafındakı son durumu şərh edən siyasi ekspertlərin bu xüsusda maraqlı şərhləri var. Məsələn, musavat.com-un məlumatına görə, tanınmış rusiyalı analitik Andrey Yepifansev hesab edir ki, münaqişə zonasında müharibə ehtimalı artsa da, hələ ki genişmiqyaslı toqquşma ehtimalı görünmür, çünki beynəlxalq şərtlər bunu istisna edir:** "Əgər Azərbaycan üçün ideal situasiyadan danışsaq, o, belə ola bilər: dünya neft bazarı 10 il öncəki duruma, yəni "satıcı bazarı"na qayıdır. Cənubi Avropanın Azərbaycanın neft və qazından asılılığı alternativsizlik şəraitində artır. Belə bir şəraitdə hərbi əməliyyatlar qızışır və erməni tərəfi hansısa neft borusunu bombalayır (qeyd edim ki, İrəvanın özü həmişə bu haqda danışır, hədələyir). Avropa isə borunun o biri ucunda karbohidrogen qıtlığı hissi edir və dünya birliyi Dağlıq Qarabağ probleminə ciddi diqqət ayırır".

**Politoloq Azərbaycan üçün başqa məqbul variantları da mümkün hesab edir:** "Misal üçün, Rusiya-Ermənistan münasibətlərinin qəfil pisləşməsi. Nəzəri cəhətcə bu mümkündür. Ermənistan faktiki surətdə bir neçə il qabaq Avropa Birliyi ilə assosiativ saziş imzalayıb - hansı ki, Rusiyadan ötrü məqbul deyil. Onu da görürük ki, son günlər İrəvan-Moskva əlaqələri mürəkkəbləşib. Nədən ki, Ermənistan Rusiyanın Dağlıq Qarabağ məsələsində tutduğu mövqedən və Azərbaycana silah satmasından xeyli narazıdır. Ötən ilin aprelində Qarabağ uğrunda gedən döyüşlərdə Ermənistan gözləyirdi ki, Rusiya aydın şəkildə ermənipərəst mövqe tutacaq, ancaq bu, baş vermədi. Hətta ABŞ-dakı son prezident seçkilərində erməni lobbisi ilə yanaşı, rəsmi İrəvan da Rusiyanın mövqeyindən narazılığın təzahürü kimi Hillari Klintona stavka edirdi. Ermənilərlə söhbətdə "Biz öz mövqeyimizi balanslaşdırmaq istəyirik" sözlərini eşidirik. Əslində isə onların istəyi Rusiya və ABŞ-ı toqquşdurmaqdır. İndi İrəvanda deyirlər ki, "madam ki, Hillari gəlmədi, o zaman Rusiya ilə strateji müttəfiq olduğumuzu yada salmalıyıq". Yarım il öncə isə tamam ayrı bəyanatlar verirdilər". **Ekspertin fikrincə, bütövlükdə qısamüddətli perspektivdə konkret addımlara keçmək üçün münasib şərtlər yoxdur.** "Odur ki, konflikt kiçik intensivlikdə, kifayət qədər müntəzəm, aylıq kəskinləşmələrlə davam edəcək".

**Belədirsə, deməli, Azərbaycanın "sürünən müharibə" taktikası da davam edəcək.**

**❑ Siyasət şöbəsi**

# Türkiyə-Almaniya münasibətləri pik həddə

## Türkiyəli nazirin çıxışına qoyulan qadağa tərəfləri üz-üzə qoydu; **Elçin Mirzəbəyli:** "İki ölkənin əbədi rəqiblər olduğunu deyə bilərik..."

**Türkiyə-Almaniya münasibətlərində gərginlik yaranıb. Günlər öncə qardaş ölkədə almaniyalı jurnalistin həbsi ilə başlamış gərginliyi artıran daha bir hadisə yaşanıb: Türkiyənin ədliyyə naziri Bekir Bozdağın Almaniyada türklər qarşısında gələn ay keçiriləcək referendumla bağlı çıxışına icazə verilməyib. Türk hökuməti artıq Almaniyanın Ankaradakı səfirinə rəsmi etiraz bildirib.**



Bozdağ bu çıxışında Almaniya türklərini Türkiyədə aprel ayında keçiriləcək referendumda prezident Ərdoğanın partiyasını dəstəkləməyə çağıracaqdı. Nazir deyib ki, "Türkiyəyə daim demokratiyadan, qanunun aliliyi və söz azadlığından mühazirə oxuyan bir ölkə türk icmasının tədbirinə icazə verməyib".

Qeyd edək ki, Almaniyada yaşayan 3 milyon türkdən 1.4 milyonunun Türkiyədəki səsvermələrdə iştirak etmək hüququ var. Bu amili nəzərə alan ekspertlər hesab edirlər ki, qərarla alman hökuməti əslində Türkiyədəki referenduma öz mövqeyini ortaya qoyur və dolayısı ilə bu yolla seçkilərə təsir etmək istəyir. Gərginliyin səbəbi kimi alman jurnalistin Türkiyədə həbsindən sonra almaniyalı siyasətçilərin kansler Merkelə təzyiqlərini önə çəkənlər də var.

**Politoloq Elçin Mirzəbəyli Türkiyə-Almaniya münasibətlərinə təsir edən səbəbləri bu cür sadaladı:** "Səbəblərdən biri Almaniyanın Türkiyəni Avropada və bütövlükdə Avrasiya məkanında özünə rəqib görməsidir. Tarixin müəyyən dönəmlərində hər iki dövlətin sələflərinin arasında qısamüddətli və uğursuz müttəfiqlik münasibətləri olsa da, Türkiyə və Almaniyanın əbədi rəqiblər olduğunu deyə bilərik. Alman geosiyasətinin atası sayılan Fridrix Ratsel Almaniyanı kontinental güc kimi təsvir edir. Ratsel və ardıcılları Almaniyanın kontinental ekspansiya siyasətində ən böyük maneə kimi Osmanlı dövlətini, indiki Türkiyəni görürdülər. Ratselin yaşadığı dönəmdən bu yana dünyanın xəritəsi bir neçə dəfə dəyişsə də, Almaniya və Türkiyə ilə bağlı geosiyasi reallıqlar dəyişməyib. Almaniyanın və ən yaxın müttəfiqi Avstriyanın Türkiyənin Avropa İttifaqına üzv olması ilə bağlı uzun illərdən bəri nümayiş etdirdikləri mövqe də bu geosiyasi reallıqlardan, Türkiyə-Böyük Britaniya ittifaqının gələcəkdə yarada biləcəyi təhdidlərdən qaynaqlanır. Almaniyanın uzun illərdən bəri Türkiyəni parçalamağa çalışan PKK-ya dəstək verməsi, PKK və digər separatçı kürd qruplarının liderlərinə qucaq açması da buradan qaynaqlanır. Almaniya iqtisadi müstəvidə, xüsusilə də enerji dəhlizlərinin diversifikasiyasında Türkiyəyə rəqib kimi yanaşır. Almaniyalı jurnalistin həbsi isə sadəcə mövcud olan ziddiyyətlərin daha qabarıq görünməsinə zəmin yaradan amil kimi dəyərləndirilməlidir. Bəkir Bozdağa olan münasibət isə Almaniyanın Ərdoğan hakimiyyətinə, onun yürütdüyü siyasətə, referenduma çıxarılan məsələyə, qardaş ölkədə son dövrlərdə cərəyan edən proseslərə münasibətidir".

**Politoloq Bozdağın çıxışına icazə verilməməsinə haqq qazandırdı:** "Türkiyə iqtidarının Almaniyada seçki kampaniyası aparmasına, mitinq keçirmək iddiasına və bunu israrlı şəkildə həyata keçirmək cəhdinə haqq qazandırmıram. Almaniyanı buna görə heç kim qınaya bilməz. Eyni şeyə Türkiyə, yaxud başqa bir dövlət icazə verərdimi? Məncə, yox. Almaniya dövləti Türkiyə iqtidarının onun sərhədləri çərçivəsində referendum öncəsi kampaniya aparmasına icazə vermir və bu, rəsmi Berlinin haqqıdır. Buna səbəb olan amillərdən biri Türkiyədə referenduma çıxarılan məsələnin Almaniyanın konstitusion dövlət quruluşuna zidd olması, neqativ president yarada biləcəyi təhlükəsi ilə bağlıdır. Başqa bir amil Ərdoğan hakimiyyətinin din üzərindən siyasət yürütməsi, siyasi İslam faktoru və bunun Almaniyada yaşayan türklərə təsiri ilə bağlıdır. Nəinki Almaniya, heç bir Avropa ölkəsi siyasi islamla qarşı-qarşıya qalmaq istəmir. Dünyanın heç bir sekulyar dövləti bunu arzulamır. Əgər referendumda Türkiyənin hakim partiyası uğur qazanarsa, o zaman nəinki Almaniya, Avropanın digər dövlətləri də bu ölkə ilə münasibətlərinə sərhəd qoyacaq. Hesab edirəm ki, Almaniyada Bəkir Bozdağa göstərilən münasibət gələcəkdə baş verə biləcək proseslərin müjdəçisi kimi qəbul olunmalıdır. Almaniyada heç kim türklərə gəlib deməyəcək ki, sən referendumun əleyhinə, yaxud lehinə səs ver. Bu mümkün deyil. Bu yaxınlarda Belçika və Hollandiyada səfərdə olmuşam və buradakı ən böyük türk diaspor qurumlarının rəhbərləri, millət vəkilləri, siyasətçilərlə təmasda olmaq fürsətim olub. Avropada yaşayan türklərin 90 faizindən çoxu referendumun əleyhinə çıxış edirlər. Xüsusilə də dünyada baş verən prosesləri təhlil etməyi bacaran, siyasi dünyagörüşü olan türklər. Bunu mən bir neçə günün ərzində müəyyən edə bilmişəmsə, yəqin ki, Almaniyanın da, türklərin yaşadığı digər Avropa dövlətlərinin müvafiq qurumları məndən daha öncə müəyyən ediblər. Ola bilsin ki, Türkiyənin hakim partiyası da bunu bilir və bu reallığı dəyişmək üçün türklərin ən çox yaşadığı bir ölkədə - Almaniyada seçki kampaniyası aparmaq istəyir. Yəqin ki, Almaniya da bu reallığın dəyişməsini istəməyib".

❑ **Cavanşir ABBASLI**

# Sərkisyan həm qorxur, həm qorxutmağa çalışır

## Paris Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prosesdə önə çıxmaq istəyir, prezidentlər səviyyəsində görüş olacaq; **politoloq:** "Belə bir təşəbbüs olsa belə..."

**Azərbaycan prezidenti İlham Əliyev martın 14-də Fransaya səfər edəcək. Virtualaz.org xəbər verir ki, bu barədə "Radio France İnternational" (RFİ) bildirir. Səfər Azərbaycanla Fransa arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunur, lakin gözlənilir ki, Paris danışıqlarının əsas mövzusu Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyət olacaq.**



Fransa radiosu bildirib ki, bundan bir həftə əvvəl Ermənistan prezidenti Serj Sərkisyan da Parisə gedəcək. Həmin səfər də ikitərəfli diplomatik münasibətlərin qurulmasının 25 illiyinə həsr olunub, lakin Yelisey sarayındakı mənbələr Sərkisyanla Fransa prezidenti Fransua Ollandın görüşündə Qarabağ məsələsinin müzakirə olunacağını bildirir.

Xatırladılır ki, martın 14-də Serj Sərkisyan Moskvada səfərdə olacaq, prezident Vladimir Putinlə ikitərəfli münasibətlərlə yanaşı, Dağlıq Qarabağ münaqişəsi ətrafında kəskinləşən situasiyanı müzakirə edəcək.

Qeyd edək ki, hazırda Minsk Qrupunda Fransanın və ABŞ-ın rolu xeyli zəifləyib, təşəbbüs çoxdan Rusiyaya keçib. Ötən il Fransa tərəfi Azərbaycan və Ermənistan prezidentlərinin Parisdə görüşünü təşkil etmək üçün xeyli səylər göstərsə də, İrəvan nümayişkaranə şəkildə danışıqlardan imtina etdi. Hazırda Rusiya tərəfləri danışıqlar masası arxasına qaytarmaq üçün yenidən müəyyən diplomatik fəallıq nümayiş etdirir, Moskva prezidentlərin üçtərəfli görüşünü təşkil etməyə hazır olduğunu bildirib. Lakin hələlik belə görüşə dair razılıq yoxdur. Bu mənada Parisin təşəbbüsü ələ alacağı barədə ehtimallar ortaya çıxır. Düzdür, Rusiya prosesi tam nəzarətdə saxlayır. Belə ki, yaxın günlərdə Azərbaycan XİN başçısı Elmar Məmmədyarov Moskvaya səfər edəcək. Bu səfərin S.Sərkisyanın Rusiya səfərindən əvvəl baş tutması da müəyyən təxminlərə yol açır. İndiki situasiyada Qarabağ cəbhəsində gərginlik ən yüksək səviyyədədir. Təkcə ötən sutka ərzində düşmənin atəşkəsi 265 dəfə pozması vəziyyətin nə dərəcədə ciddi olduğunu göstərir. Ancaq Azərbaycan Müdafiə Nazirliyi işğalçı orduya sarsıdıcı zərbə vurulmasının videogörüntülərini də yayıb.

Məhz bunun ardınca Ermənistan prezidenti Serj Sərkisyanın Xarici İşlər Nazirliyində təşkil edilən toplantıda "İrəvan və Dağlıq Qarabağ müharibə istəmir" bəyanatını verməsi diqqət çəkir. Ümumilikdə ötən ay Ermənistan ordusu 1266 dəfə atəşkəsi pozub ki, bu da əvvəlki aylarla müqayisədə daha çoxdur və ermənilərin cəbhədə necə aktivləşdiyini təsdiqləyir.

Ancaq bütün bu təxribat-diversiya qrupları, iriçaplı silahlardan atəşə tutmalar və cəbhədə yaşanan gərginliklər zamanı Sərkisyan açıqlama verərək, "müharibə istəmədiklərini" dilə gətirməyib. Yalnız ordumuzun ötən gündən başlayaraq, sərrast atəşlə Ermənistan silahlı qüvvələrinə məxsus bir zirehli texnika və hərbi nəqliyyat vasitəsini heyətləri ilə birgə, müdafiə istehkamını, qərargahını, martın 1-dən 2-nə keçən gecə hücuma keçən erməni diversiya-təxribat qrupunun bütün üzvlərini və nəhayət, günün sonunda pilotsuz uçan aparatını (bütün bunlar iki gün ərzində baş verib) məhv etdikdən sonra Sərkisyan XİN-in axşam radələrində baş tutan toplantısına qatılaraq, müharibə istəmədiklərini bəyan edəsi oldu. (axar.az)

"Dağlıq Qarabağ ətrafında hərbi eskalasiya zamanı bütün hərbi arsenal tətbiq olunacaq"-deyə, təhdid edən də Sərkisyandır. O deyib ki, əgər Azərbaycan bu qaydada davam edərsə, Dağlıq Qarabağ "xalqı"nın təhlükəsizliyinin təminatı üçün Ermənistan arsenalındakı bütün imkanların tətbiqindən geri çəkilməyəcək.

**Politoloq Elçin Mirzəbəyli son durumu şərh edərkən "Yeni Müsavat"a dedi ki, Ermənistan rəhbərliyinin sərt hərbi ritorikanın ardınca yumşaq davranış sərgiləməsi səbəbsiz deyil:** "Sərkisyanın sərt hərbi ritorikadan sonra "müharibə istəmirik" deməsi şübhəsiz ki, Azərbaycan Silahlı Qüvvələrinin ermənilərə endirdiyi son zərbələrlə bağlıdır. Belə bir bəyanatın Xarici İşlər Nazirliyində səslənməsi onun daha çox beynəlxalq təşkilatlara, ATƏT-in Minsk Qrupunun həmsədrlərinə ünvanlandığından xəbər verir. Azərbaycanın cavab zərbələrindən sarsılan hərbi-cinayətkar rejim həmsədr dövlətlərin ölkəmizə təzyiq göstərmələri üçün mesaj verir. Digər tərəfdən, Sərkisyanın "müharibə istəmirik" deməsi təbii qəbul olunmalıdır. Niyə də istəsin ki? Ermənistanın və himayədarlarının məqsədi onsuz da mövcud status-kvonu qoruyub saxlamaqdan ibarətdir". **Ekspertin sözlərinə görə, Sərkisyanın "müharibə istəmirik" deməsinin başqa bir səbəbi də var:** "Bu yanaşma onun seçki kampaniyasına hesabladığı təxribatların effektiv nəticə verməməsi və cavab tədbirlərinin sərt olması ilə əlaqədardır. Ermənistan prezidenti itkilərin sayının daha da artacağından və bunun da seçkiqabağı gərginlik yaradacağından narahatdır".

**Fransa prezidenti ilə keçiriləcək görüşlərdə Dağlıq Qarabağ məsələsinin müzakirə olunacağına gəlincə, bu, heç də təşəbbüsün Fransaya keçəcəyi anlamına gəlmir:** "Fransa prezidentinin ermənilərlə keçirdiyi görüşdə Dağlıq Qarabağda yaşayan ermənilərlə bağlı səsləndirdiyi fikirlər rəsmi Parisin bu məsələdəki mövqeyini tam çılpaqlığı ilə ortaya qoyur. Bu baxımdan, hətta belə bir təşəbbüs olsa belə, nəticə etibarilə danışıqlar prosesinə müsbət təsir göstərməyəcək".

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017



# Öldürülən jurnalistin işində yeni gəlişmələr

## Teyfurə Əliyeva: "O cinayətkar qrup övladımı əlimdən aldı"

**Jurnalist Rasim Əliyevi döyərək öldürməkdə təqsirli bilinən beş nəfər-Elşən İsmayılov, Camal Məmmədov, Arif Əliyev, Samir Mustafayev və Kənan Mədətovun hökmdən verdikləri apelyasiya şikayətinə baxılır. Bu prosesdə bir sıra diqqətçəkən məqamlar üzə çıxıb.**

Belə ki, çıxışlarında təqsirləndirilən şəxslər və onların vəkilləri hökmün qanunsuz olduğunu bildirərək, həkim səhlənkarlığı nəticəsində jurnalistin həyatını itirdiyini bildiriblər. Hətta bir qədər irəli də gedərək, "yuxarıdan" gələn tapşırıq əsasında ağır hökmün oxunduğunu qeyd ediblər.

Son məhkəmə prosesindən sonra mərhum jurnalistin ailəsi ciddi narahatdır. Onlar təqsirləndirilən şəxslərin cəzalarının məhkəmə sonunda azaldıla biləcəyindən ehtiyatlanırlar. Buna səbəb ötən ilin oktyabrında baş verən hadisənin əsas fiquru, səbəbkarı olan və 4 il cəza almasına baxmayaraq, Apelyasiya Məhkəməsi tərəfindən cəzası bir il 2 aya endirilən C.Hüseynovun hazırda azadlıqda gəzməsidir.

**Mərhum jurnalistin anası Teyfurə Əliyeva "Yeni Müsavat"a açıqlamasında narahatçılığını ifadə etdi:** "Əlbəttə, həm Cavid Hüseynovda, həm də həkimlərdə günah var. Telefonu da oğurlandığına görə Rasimin döyülməsindən gec xəbər tutmuşduq. Xəstəxanaya gedəndə hələ onu müayinə etməmişdilər. Həkim yoxlayandan sonra dedi ki, daxili orqanlarına zədə dəyməyib. Bu, yanlış rəy idi. Amma oğlumu döyüb öldürənlər öz işlərini yüngülləşdirmək üçün hər şeyi həkimin üstünə atmaq istəyirlər. Günahlar yarıbayarıdır. Oğlumu ölümcül vəziyyətə salan onlardır. Başda Cavid olmaqla, o cinayətkar qrup övladımı əlimdən aldı. Demək istəyirlər ki, biz kimisə ölümcül vəziyyətə salmalıyıq, həkim də onu ölümcül vəziyyətdən çıxarmalıdır, bunlar da günahsız olmalıdırlar. Rasim evə gəlib, evdə də ölə bilərdi. O zaman bunlar günahı kimdə axtarası idilər? Həkim bilmirəm nədənsə öz işini yerinə normal yetirməyib. Niyə qabaqcadan məlum olmayıb ki, Rasimin daxili orqanları dağılıb? Öləndən sonra bunu deyirlər. Apelyasiya Məhkəməsindən gözləntilərim barədə bir söz deməyə çətinlik çəkirəm. Cavidə 4 il hökm oxundu. Düşündüm ki, heç olmasa 4 il olsa da, məsuliyyətə cəlb olundu. Amma sonunun necə olduğunu hamımız gördük. Həkimlərin məsuliyyətdən kənarlaşdırılması, Cavidi günahsız kimi azadlığa buraxmaları bizdə çox narahatlıq yaradır. İndi də nəsə deyə bilmərəm. Həkimlərdən və Cavidin azadlığa buraxılması qərarından Avropa Məhkəməsinə müraciət etmişik. Allah heç kimə övlad acısı yaşatmasın. Özümüzə gələ bilmirik. Üstəlik də, bu haqsızlıqlar bizə əlavə dərd yaradır".

Zərərçəkmişin nümayəndəsi Fariz Namazlı istintaqın və məhkəmənin gedişindən razı olmadıqlarını qeyd etdi: "İstintaq dövründə həkimlərin məsuliyyəti və təqsirləndirilən şəxslər barədə vəsatət vermişdik. Bildirmişdik ki, həmin şəxslər təqsirkardır, Cavid Hüseynov isə təşkilatçıdır. Zərərçəkən tərəf hesab edir ki, məhz Cavidin göstərişi ilə həmin şəxslər Rasimi döyüblər. Həkimlərin özləri hətta ifadələrində bildiriblər ki, Rasim Əliyev xəstəxanada olanda müəyyən yoxlamalar aparılmalı idi, amma heç bir tapşırıq verilmədi ki, onu yoxlayaq.

İşin birinci instansiya məhkəməsinə qaytarılması və həkimlərin məsələsinin həll olunması hər iki tərəfin artıq istəyidir. Cavid Hüseynovun azadlığa buraxılması zərərçəkən şəxsin ailəsinin qaysaqlamış yarasını daha da ağrıtdı. Onlar qətiyyətlə Cavidin azadlığa buraxılmasını istəmirdilər. Cavidin cinayət işi üzrə tərəf olmadığından Rasim Əliyevin anası sadəcə şahid qismində dindirilmişdi. Buna görə də onların həmin cinayət üzrə verilən hökmdən şikayət vermək hüquqları nəzərdə tutulmayıb. Təqsirləndirilən şəxslərin özlərini təmizə çıxarmaq istəklərini anlayıram. Məsuliyyətdən yaxa qurtarmaq istəyirlər".

Qeyd edək ki, jurnalistin ölümünə səbəb olan hadisə iki il öncə avqustun 8-də baş verib. Bir qrup şəxs Rasim Əliyevi döyüb. O, ayın 9-na keçən gecə Kliniki Tibbi Mərkəzdə dünyasını dəyişib. Bu hadisə ilə əlaqədar yuxarıda adları keçən şəxslər məsuliyyətə cəlb olunublar.

Cinayəti bilib xəbər verməməkdə suçlanan və 4 il cəza alan C.Hüseynov Apelyasiya Məhkəməsi tərəfindən azadlığa buraxılıb.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Kənan Mədətov və Samir Mustafayevin hər biri - 9 il, Camal Məmmədov - 11 il , Arif Əliyev - 12 il 6 ay, Elşən İsmayılov - 13 il azadlıqdan məhrum ediliblər.

❑ **Cavanşir ABBASLI**

---

# Amerika dərgisindən ölkəmizlə bağlı məzhəb planı

**Təhlilçi Paul Goble Amerikanın "Eurasia Review" dərgisində yazır ki, guya internetdə aparılan müzakirələrdə qeyd olunur ki, şiələrin çoxluq təşkil etdiyi Azərbaycan sünni ölkəsinə çevrilməyə çalışır və buna Bakı bilərəkdən cəhd edir. Müzakirəni açanlar Azərbaycanın bununla Türkiyəyə, Qazaxıstana yaxınlaşmaq, İrandan uzaq durmaq istədiyini deyirlər.**

**Bajrektarevic** - Avropa üzrə analitik, müəllif və müxbir, **Michael Averko** - Rusiya və Avropa analitiki, **Murray Hunter** - Asiya və Okeaniya analitiki, Neville Teller - Yaxın Şərq müxbiri, **Dr Habib Siddiq** - Human Rights müxbiri, **Sabahudin Hadzialic** - Avropa üzrə xüsusi müxbir, **Said Temsamani** - Şimali Afrika müxbiri, **Shabbir H. Kazmi** - Mərkəzi və Cənubi Asiya müxbiri, **Dr. Swaleha Sindhi** - Təhsil məsələləri üzrə müxbir.

insanların din anlayışında ya çox sayda cahil, ya da qatil yetişir. İslam isə həm cahilliyə, həm də qatilliyə qarşıdır".

**Deputatın sözlərinə görə, gerçək İslamı doğru təhlil etdikdə, kimin hansı formada ibadətindən asılı olmayaraq, sağlam düşüncəyə sahib olması yetərlidir:** "Nəticədə isə onlar cəmiyyət üçün zərərli ünsürlərə çevrilmirlər. Bu kimi yazılar da birmənalı şəkildə ölkədə hansısa cinahın guya

dövlətlərin daxili işlərinə qarışmasında istifadə etməsidir. İranın öz daxilində Qərb dəyərləri olmasa da, Azərbaycanda, Bəhreyndə kimsə tutulan kimi başlayırlar hay-küy salmağa ki, beynəlxalq qurumların konvensiyaları pozulub. Beynəlxalq aləm Azərbaycanda və ətrafımızda baş verənləri düzgün dəyərləndirməlidir. İran əgər belə siyasət aparırsa və regionda vəziyyət gərginləşirsə, nəticədə bütün bunlar onun

**Mövzuya Azadlıq Radiosu da reaksiya verib və söylənilən iddialarla bağlı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) sədrinin müavini, "Heydər" məscid kompleksinin rəhbəri Sabir Həsənlinin fikirlərini alıb. S. Həsənli bildirib ki, Azərbaycan getdikcə sünniləşə bilməz:** "Hər kəs öz əqidəsindədir, hər kəs namazını qılır, orucunu tutur, ibadətində azaddır. Bu gün hansısa məzhə-

Bəzi ekspertlərə görə, Amerikanın Azərbaycandakı dini vəziyyətlə bu şəkildə maraqlanması və məzhəblər arasındakı münasibətləri belə təqdim etməsi narahatçılıq doğurur. Nə baş verir? Nə üçün ölkənin dini vəziyyəti Amerika dərgisini bu cür maraqlandırır?

**Məsələ ilə bağlı qəzetimizə danışan deputat Fazil Mustafa bildirdi ki, bu kimi yazılar qızış-**

əzildiyini göstərmək məqsədilə, digərinə qarşı aqressivliyə sahib olmasına yönləndirməkdir. Bu, baş tutan plan deyil və cəmiyyətin aydınları prosesin qarşısını alacaqlar. Ölkədəki sünni və şiələrin faizini göstərmək isə bir başqa axmaqlıqdır. Adam formal olaraq müsəlmandır, dinin qaydalarına əməl etmir, ancaq deyir ki, şiəyəm, yaxud da sünniyəm.

özünə də ziyan vura bilər. Digər tərəfdən isə nəzərə alınmalıdır ki, Azərbaycan unikal müsəlman dövlətidir. Doğrudur ki, burada şiələrin sayı çoxdur. Lakin tarixən hələ Azərbaycan sünnilər arasında hansısa ədavət, gərginlik yaratmaqla məşğul olmayıb. Eləcə də Azərbaycandakı sünnilər vacib bildiyimiz mənafelərə olduğu kimi riayət ediblər. Ən azı məhərrəmlik dövründə bütün ölkə ərazisində şadyanalıq, şənlik olmur".

**Politoloqa görə, Amerika dərgisi ABŞ Dövlət Departamentinin siyasətinə qarşı çıxıb:** "ABŞ Dövlət Departamentinin bizim regionda dinlə bağlı çox vacib strategiyası var. Bil-



**Fazil Mustafa:** "Yazı hansısa xarici ölkənin müəyyən təsiri altında olan adamların qızışdırıcı addımıdır"



**Mübariz Əhmədoğlu:** "Yayılan tezisin İrana məxsusluğuna əminəm"

bin üstünlüyündən danışmaq da olmaz. Azərbaycanda iki sünni məzhəbi var. Bunlardan biri hənəfilər, biri də şafiilərdir. Şafiilər Azərbaycanın şimal-qərb rayonları olan Zaqatala və Balakəndədirlər. Bir də şiələrdir. Bakı və Bakı kəndlərinin, Naxçıvanın, Lənkəran bölgəsinin, ümumiyyətlə, orta qurşaqdan aşağı zonaların əksəriyyəti şiədir. Burda hər hansı həyəcana əsas yoxdur. Biz, əksinə, çalışırıq ki, həm şiə, həm də sünni eyni məsciddə namaz qılsın. «Heydər» məscidində biz buna - vəhdət namazına nail olmuşuq".

Xatırladaq ki, AzadlıqRadiosu da birbaşa Amerikaya bağlı olan kütləvi informasiya vasitəsidir. Məlum olduğu kimi, bu media orqanı ABŞ Konqresi tərəfindən maliyyələşir. Yuxarıda qeyd etdiyimiz kimi, "Eurasia Review" da məhz Amerikanın dərgisidir. "Yeni Müsavat" olaraq dərginin redaktor heyəti ilə maraqlandıq. Həmin şəxslər aşağıdakılardır:

**Adfar Shah - Cənubi Asiya** müxbiri və redaktoru, **Peter Tase** - Avropa və Latın Amerikası üzrə müxbir və redaktor, Prof. **Anis**

**dırıcı xarakter daşıyır:** "Azərbaycanda əslində belə bir problem ümumiyyətlə, mövcud deyil. Cəmiyyətin içərisində sırf Azərbaycana bağlı, Azərbaycan vətəndaşı modelini qəbul edən insanlar üçün dində sekta, təriqət, məzhəb ayrılığı yoxdur. Yazı hansısa bir xarici ölkənin müəyyən təsiri altında olan adamların bu istiqamətdə qızışdırıcı addımlarıdır. Göstərmək istəyirlər ki, guya Azərbaycanda hansısa məzhəb daha da güclənir, digəri isə zəifləyir. Belə bir anlayış yoxdur. Azərbaycanda ümumi bir cahillik var və bu, sünnilərdə də, şiələrdə də kifayət qədər geniş yayılıb. Ona görə də hansı cinahdan asılı olmayaraq, aydınlar, düşünən dindarlar bu prosesin qarşısını almaq üçün əllərindən gələni etməlidirlər. Çünki gələcəkdə ən azından cahillərin din anlayışı ölkədə ön cərgəyə çıxmamalıdır. Bu istiqamətdə səylər birləşdirilməlidir. Dövlətin də siyasəti bütövlükdə kiməsə üstünlük vermək siyasəti deyil. Məqsəd hüquq çərçivəsində insanların inanc, vicdan azadlığını həyata keçirməkdir. Bugünkü

Bunun nə mənası var? Bölgü mənasızdır. Azərbaycan əhalisinin neçə faizinin müsəlman olması ifadəsi yazılmalıdır. Kimsə deyirsə ki, filan faiz sünni, filan faiz isə şiədir, o, qəsdən hansısa sektanı qabartmaq məqsədi güdür".

**Politoloq Mübariz Əhmədoğlu isə "Yeni Müsavat"a bildirdi ki, bu cür tezis İrana məxsusdur:** "İran tərəfi bu tezisi az qala Azərbaycana qarşı ən böyük ittihama çevirib. İŞİD, vəhhabinin sayı getdikcə artır, İran da bütün bunların əvvəlində qeyd edir ki, Azərbaycanda şiələr təzyiq altındadır. İndi isə Amerikada və ya digər yerlərdə kimsə bu tezisdən istifadə edirsə, deməli ki, amerikalı mütəxəssisin gəlib burada tədqiqat aparmaq imkanı yoxdur. Belə olan təqdirdə isə onlar hazır tezisdən istifadə ediblər. Hesab edirəm ki, İrana bağlı qüvvələr və ya elə onların öz adamları tezisi Amerika jurnalına ötürüb, Azərbaycana zərbə vurmaq istəyirlər. Əslində İranın indiki hakimiyyətinin ən böyük qüsurlarından biri Qərbin dəyərlərindən xarici siyasətində, qonşu

dirilir ki, Türkiyə süni məzhəbli dövlətlər, Azərbaycan isə şiə məzhəbli dövlətlər üçün lider olmalıdır. İndi Amerikanın hansısa radiosu, dərgisi bu konsepsiyanın əleyhinə gedirsə, hesab etsin ki, ABŞ-ın regional siyasətinə qarşı çıxır. Nəzərə alınmalıdır ki, Azərbaycan rəhbərliyi ölkədə dini nisbətin sabit qalması üçün mütəmadi işlər görür. Ölkədə "Eurovision" yarışları keçirilən zaman da Avropa ölkələrində əleyhimizə yazılar dərc olunurdu. Bu yarışmanın əleyhinə çıxan da İran idi. Eləcə də Bəhreyndə "Formula-1" yarışları keçirilən zaman beynəlxalq hüquq-müdafiə təşkilatları oranı da sərt tənqid edirdilər. Orada da İranın marağı var idi ki, Bəhreyn tanınmasın, beynəlxalq imicinə zərbə vurulsun. Bu baxımdan, tezisin İrana məxsus olduğuna əminəm. İran rəqiblərinə qarşı mübarizə işini çox gözəl qurub. Xaricdə də onların xeyli sayda adamları var. Hesab etmirəm ki, dərgidə dərc olunan Amerikanın mövqeyidir".

❑ **Əli RAİS**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycan öz "ulduz saatı"nı gözləməlidir - Qarabağ məsələsində...

## Bakı münaqişə ətrafında qlobal trendləri ciddiyə almaq zorundadır, ancaq...; **rusiyalı politoloq:** "Beynəlxalq şərait hələ ki müharibə üçün uyğun deyil..."



**Qarabağ danışıqlarında durğunluq davam etdikcə siyasi ekspertlərin leksikonunda müharibə mövzusu da öz ağırlığını saxlayır. Sözsüz ki, hamı sülhün alternativinin gec-tez müharibə olacağının fərqindədir. Odur ki, mövcud təhlükəli durumdan çıxış yolları da diqqət mərkəzindədir. Xüsusən də 4 günlük aprel savaşının ildönümü ərəfəsində dinc nizamlanma prosesini dalandan necə çıxarmağın vacibliyi aktuallıq kəsb eləməkdədir.**




Yada salaq ki, təxminən bir il öncə də qoşunların təmas xəttində indiki kimi böyük gərginlik hökm sürürdü. O zamankı kimi, indi də iri çaplı silahlar tez-tez işə düşür, cəbhə xəttində erməni təxribatlarının xeyli artması müşahidə edilir. Baş verənlər əksər siyasi və hərbi ekspertlərdə genişmiqyaslı hərbi toqquşma ilə bağlı ehtimalları gücləndirib.

***

**Rusiyalı politoloq Andrey Yepifantsev də hesab edir ki, aprel döyüşlərindən ötən 11 ayda təmas xəttində genişmiqyaslı qarşıdurma ehtimalı əhəmiyyətli dərəcədə artıb. Musavat.com-un məlumatına görə, bu barədə o, "Vestnik Kavkaza" saytına açıqlamasında deyib:** "Bu haqda amerikalı analitiklər də danışır. Məsələn, keçmiş həmsədr Kerri Kavano fevralda bəyan eləmişdi ki, növbəti 12 ayda ciddi qarşıdurma ehtimalı artıb. Əgər nə BMT-nin Qarabağa dair qətnamələrinin yerinə yetirilməsi, nə də, ümumiyyətlə, dinc nizamlama perspektivi görünmürsə, kompromislər üçün meydan yoxdursa, nə haqda razılığa gəlmək olar ki? Əgər Ermənistan danışıqları imitasiya edir, daxildə isə "heç bir kompromisə gedilməyəcək" mövqeyini tutursa, Azərbaycan üçün başqa yol qalmır. Türkiyə və Gürcüstan da vaxtilə belə hərəkət etmişdi, Ukrayna da indi belə hərəkət edir".

**Politoloqa görə, bu, sülh danışıqlarının perspektivsizliyinin doğurduğu standart durumdur:** "Azərbaycan cəmiyyətinin aprel döyüşləri ilə bağlı ümidləri doğrulmadı. O vaxt Azərbaycana elə gəlirdi ki, belə genişmiqyaslı qarşıdurma zamanı bütün dünya görəcək ki, konflikt sönməyib və onun həlli üçün Ermənistana təzyiqlər ediləcək. Lakin bunlar olmadı. Ukrayna ilə bağlı Minsk prosesinin üzvü olmayan Rusiyaya qarşı sanksiyalar tətbiq olunur. Amma BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirmək istəməyən Ermənistana sanksiya tətbiq olunmur. Səbəb aydındır: Rusiya Ermənistanın strateji müttəfiqidir və Moskva onu böyük ölçüdə özünə yaxın hesab edir, Fransa və ABŞ-da isə çox güclü erməni diasporu mövcuddur. Amerikada o, hökumətə təsir imkanına malikdir. Və bu üç ölkə ATƏT-in Minsk Qrupunun həmsədrləridir".

**Lakin ekspert hesab edir ki, Azərbaycan üçün bu xüsusda müəyyən pozitiv dəyişikliklər mümkündür:** "Məsələ ondadır ki, ABŞ-da öncəki administrasiya öz mövqelərini itirib və erməni diasporunun mövqeyi xeyli zəifləyib. Hillari Klinton erməni lobbisi üçün mahiyyət etibarilə həm "genosid" məsələsində, həm də Dağlıq Qarabağ konfliktinə münasibətdə alternativsiz namizəd idi. Ümumiyyətlə, ənənəvi olaraq, erməni diasporu demokratlara daha çox bağlıdır. Ən azından onların iki nüfuzlu parlamentarları - Mark Kirk və Bob Doul son seçkilərdə öz postlarını itirdilər. Demək, erməni lobbisinin Amerika siyasətinə təsirinin azalmasını gözləmək lazımdır. Bu isə ABŞ-ın Qarabağ nizamlanmasındakı mövqeyinə hansısa şəkildə dəyişikliklər gətirə bilər. Lakin prezident Donald Trampın münaqişəyə münasibəti hələlik aydın deyil. Həmçinin Fransada prezident seçkilərindən sonra nə olacaq, yalnız ehtimal eləmək mümkündür. Yəqin ki, Fransanın Minsk Qrupuna marağı azalacaq. Bu isə öz növbəsində Rusiyanın rolunu gücləndirəcək. Bu da Azərbaycana heç bir dəyişiklik vəd eləmir, çünki Moskva, hər halda, status-kvonun saxlanmasının tərəfdarıdır".

**Rusiyalı analitik mövcud şərtlər fonunda genişmiqyaslı müharibəni mümkün saymır:** "Beynəlxalq vəziyyət buna uyğun deyil. Müharibənin təşəbbüskarı yalnız Azərbaycan ola bilər, çünki Ermənistana bu, qətiyyən sərfəli deyil. Ancaq indi şərait müharibə üçün uyğun deyil. Beynəlxalq birlik Azərbaycanın tərəfində dayanmayıb. Bu konfliktdə Azərbaycanın yeganə ciddi siyasi müttəfiqi Türkiyə isə zəifləyib. Onun NATO, ABŞ və Avropa Birliyi ilə münasibətləri, qaçqınlar, kürd məsələsi, Suriya problemi ilə əlaqədar əl-qolu bağlıdır. Yeni Türkiyə real olaraq Azərbaycana kömək eləməyə hazır deyil".

**Ekspertin sözlərinə görə, Dağlıq Qarabağ dünya üçün Suriya və Ukrayna problemləri səviyyəsində deyil.** "Hətta bu problemlər də iri dövlətlərin diqqət sferasından uzaqlaşır. ABŞ çalışır ki, öz işləri ilə məşğul olsun və özünün xarici siyasət gündəliyinin bir hissəsini Avropanın, xüsusən də Almaniyanın üstünə atsın. Almaniyanın rolu artır, ancaq bu ölkənin ATƏT-in Minsk Qrupuna elə bir dəxli yoxdur. Bir neçə aydan sonra yəqin ki, Trampa bənzər birisinin prezident olacağı Fransanın da Qarabağa dair səylərini gücləndirəcəyini təsəvvür eləmək çətindir. Fransanın ABŞ kimi çəkisi yoxdur və erməni lobbisi istənilən fəallığı ləngidəcək. Belə bir situasiya saxlanacaq ki, vasitəçilər deyəcəklər ki, "Bəli, biz Azərbaycanı dəstəkləyirik, ancaq məsələni danışıqlar masası arxasında həll eləmək lazımdır". Situasiya yalnız kəskin struktur dəyişikliyi zamanı dəyişə bilər", - deyə rusiyalı politoloq əlavə edib.

***

Bütün hallarda Azərbaycan şübhəsiz ki, Qarabağ məsələsi ilə bağlı həm regional, həm də beynəlxalq şərtləri ciddiyə alacaq və alır. Çünki biz problemin dinc yolla həllini beynəlxalq təşkilatlardan, böyük güclərdən gözləyiriksə, demək, onların məsələdə dəyişən mövqe və maraqlarını, qlobal siyasətdəki trendləri də ciddiyə almaq zorundayıq.

Əlbəttə ki, passiv formada yox, aktiv şəkildə səylərimizi davam etdirməklə, işğalçını daima narahat etmək və gərginlikdə saxlamaqla, onu mütəmadi canlı itkilərə məruz qoymaqla, hərbi-iqtisadi qüdrətimizi durmadan artırmaqla, nəhayət, öz "ulduz saatımız", ən əlverişli fürsəti gözləməklə. Dağlıq Qarabağ məsələsində beynəlxalq hüquq bütünlüklə bizim tərəfimizdə qalmaqdır. Bu isə bizim ən böyük üstünlüyümüzdür.



# "Ermənistanın işğalçı siyasətini artıq himayədarları da qəbul etmir" - Əli Həsənov

"Cocuq Mərcanlıda səfərdə olan zaman Rusiyanın Azərbaycandakı səfiri Doroxin dedi ki, adətən informasiya işi ilə məşğul olur, kağız üzərində işləyirlər. Bildirdi ki, Cocuq Mərcanlıda dağıntının nə demək olduğunu, kiçik bir kəndin qısa müddətdə necə dağıdıldığını gözləri ilə görüblər". Bunu baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov deyib (APA).

O bildirib ki, səfirlərin əksəriyyəti öz mövqelərini ifadə ediblər: "Səfirlər gördülər ki, erməni faşizmi nə deməkdir, necə qısa müddətdə bu yerləri darmadağın ediblər. Bu gün dünya artıq Azərbaycan barədə danışır. Əgər Ermənistan əvvəllər informasiya axınında bizi üstələyirdisə, biz onların arxasında qalırdıqsa, son illər hər şey dəyişib. Prezidentin apardığı siyasət nəticəsində artıq Azərbaycan informasiya yayımında öndə gedir, Ermənistan arxamızca çata bilmir və çata bilməyəcək də. Ermənistanın işğalçı siyasəti artıq dünya, o cümlədən himayədarları tərəfindən də qəbul olunmur. Yəqin ki, Ermənistandakı işğalçı rejimin sonu yaxınlaşır".

**Baş nazirin müavini qeyd edib ki, Xocalı soyqırımını tanıyan ölkələrin sayı artır:** "Yəqin ki, bu işlər sona çatacaq, Xocalı soyqırımını törədən cəlladlar beynəlxalq məhkəməyə veriləcək, hər bir günahkar öz cəzasını alacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017



# Qırğızıstan hökumətindən Azərbaycan əleyhinə xain mövqe

## ECO toplantısındakı səsvermədə Bişkək Ermənistana dəstək nümayiş etdirib; rəsmi Bakıdan etiraz gəldi...

**Qırğızıstan hökumətinin Azərbaycanla bağlı tutduğu mövqe rəsmi Bakının etirazına səbəb olub. Söhbət Bişkəkin İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 13-cü sammitində qəbul edilmiş bəyanatın siyasi müddəalarına qoşulmamasından gedir. Artıq Azərbaycanın Xarici İşlər Nazirliyi (XİN) məsələyə reaksiya verib.**

"Qırğızıstanın kimin dəyirmanına su tökməsi ciddi sual doğurur". Bunu «Trend»ə müsahibəsində nazirliyin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev Qırğızıstanın İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 13-cü sammitində qəbul edilmiş bəyanatın siyasi müddəalarına qoşulmamasına münasibət bildirərkən deyib. H.Hacıyevin sözlərinə görə, ECO-nun Zirvə toplantısının bəyanatında üzv dövlətlər tərəfindən açıq şəkildə bildirilir ki, ECO məkanında münaqişələrin mövcudluğu iqtisadi inkişafı və əməkdaşlığı əngəlləyir: "Bundan əlavə, bəyanatda inkişaf, sülh və təhlükəsizliyin regionda davamlı çiçəklənmə və sabitliklə birbaşa bağlı olduğu qeyd olunur. Ümumiyyətlə, iqtisadi inkişaf və regional əməkdaşlığın sülh və təhlükəsizliklə üzvü bağlılığı bütün beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilən prinsipdir və bu, BMT-nin Davamlı İnkişaf Konsepsiyasının təməlini təşkil edir. Ona görə də Qırğızıstanın mövqeyi qətiyyən başadüşülən deyil. Bu mövqe ilə Qırğızıstanın kimin dəyirmanına su tökməsi də ciddi sual doğurur".

Qeyd edək ki, Ermənistan mətbuatı müsəlman və türk respublikanın anti-Azərbaycan siyasətindən xeyli məmnun olublar və bununla bağlı xəbərlər yayıblar. Qırğız hökumətinin nədən belə davrandığına gəldikdə, məsələ ilə bağlı ekspertə müraciət etdik.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, Qırğızıstanın sammitdə qəbul edilmiş bəyanatın siyasi müddəalarına qoşulmaması ciddi suallar doğurur:** "İslam dövlətləri ECO məkanında münaqişələrin mövcudluğunun iqtisadi inkişafı və əməkdaşlığı əngəlləndiyini yekdilliklə qəbul edərkən Bişkək fərqli mövqe ortaya qoyub. Bəyanatda inkişaf, sülh və təhlükəsizliyin regionda davamlı çiçəklənmə və sabitliklə birbaşa bağlı olduğu qeyd olunub. Bu, ümumi prinsiplərdir. Qırğızıstan bu prinsipin əleyhinə getməklə Ermənistanımı sudan qurumu çıxarmaq istəyir?"

**E.Şahinoğlu bir məqama da diqqət çəkdi:** "Ümumiyyətlə, Qırğızıstan birinci dəfə deyil ki, Ermənistana diqqət nümayiş etdirir. Qırğızıstanın keçmiş prezidenti Əsgər Akayev vaxtilə İrəvana səfər edərək "soyqırım" abidəsinə gül-çiçək qoymuşdu. Halbuki Qırğızıstanın Ermənistanla elə bir iqtisadi əlaqələri və ya ortaq layihələri də yoxdur ki, deyəsən ki, Bişkək İrəvana bu şəkildə yaltaqlanır. Görünür, Qırğızıstan Rusiya və Ermənistanla birgə Avrasiya İqtisadi Birliyində, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında yer aldığı üçün İrəvana nəvaziş nümayiş etdirir. Qazaxıstan və Belarus da eyni qurumların üzvüdürlər. Ancaq hər ikisi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Ermənistanın siyasətindən narazıdırlar. Görünür, Qırğızıstan Pakistandakı toplantında Azərbaycana dəstək verməməklə Rusiyaya mesaj yollayır ki, "görürsünüz, Ermənistanın təklənməsinə imkan vermirəm". Əslində Qırğızıstanın prezidenti Almazbek Atambayev Serj Sərkisyan qədər Rusiyaya vassallıq etmək istəyir".

**Politoloq Bişkəkin son davranışlarından bəhs edərkən bir səhnəni də xatırladı:** "Bir neçə gün öncə Almazbek Atambayev Bişkəkdə rusiyalı həmkarı Vladimir Putini elə qarşıladı ki, sanki qarşısında atası və ya yaxın qohumudur. Putin onun, sadəcə, əlini sıxmaq istəyərkən, Almazbek Atambayev onu bərk-bərk qucaqladı. Bu səhnə hətta rusiyalı jurnalistləri də şoka saldı. Birgə mətbuat konfransında isə Almazbek Atambayev Rusiyanın hərbi bazasına necə yer ayırmalarından ağız dolusu danışırdı. Beləliklə, türkdilli dövlət başçısı öz qardaşının torpağını işğal edən dövlətə daha çox sədaqət göstərir. Belə qardaşdansa, işğala görə Ermənistanla diplomatik münasibəti olmayan Səudiyyə Ərəbistanı ilə əlaqələrin intensivləşdirilməsi bizim üçün daha vacibdir".

❑ **Cavid TURAN**

# NATO rəhbərliyi Gürcüstanda

## Qonşu ölkə qurumun üzvü olmağa yaxınlaşır, Azərbaycan yolun harasındadır...

**Martın 3-də Tiflisdə NATO Hərbi Komitəsinin iclası başlayıb. APA-nın Gürcüstan bürosunun məlumatına görə, NATO Hərbi Komitəsinin sədri, general Petr Pavel Gürcüstanın NATO-nun önəmli tərəfdaşı olduğunu bildirib. Gürcüstanın müdafiə naziri Levan İzoria isə NATO-nun Gürcüstana dəstəyinin önəmli olduğunu qeyd edib: "Biz NATO Hərbi Komitəsinin rəhbərliyi ilə əməkdaşlığımızı daha da gücləndirəcəyik, mövcud işgüzar və praktiki mexanizmləri daha da təkmilləşdirəcəyik. Bu gün regionda Rusiyadan qaynaqlanan təhlükəsizlik problemləri fonunda NATO-nun önəmli dəstəyi var. Bunu NATO Hərbi Komitəsinin yığıncağının ikinci dəfə Gürcüstanda keçirilməsi haqqında qərarı və dəstəyi sübut edir. Ümid edirik ki, Gürcüstan alyansın etibarlı tərəfdaşı kimi avroatlantik ailənin gələcək üzvü kimi tanınacaq".**



Müdafiə naziri 2017-2020-ci illər üçün yeni strategiyanın əsas istiqamətləri haqqında məlumat verib, NATO-Gürcüstan əməkdaşlıq formatında NATO-Gürcüstan əhəmiyyətli paketi (SNGP) prosesi barədə danışıb.

Sonra NATO-Gürcüstan birgə Təlim və Qiymətləndirmə Mərkəzinin layihə rəhbəri, polkovnik Qriqori Çelidze silahlı qüvvələrə aid layihəni təqdim edib.

Ekspert Şahin Cəfərlinin fikrincə, martın 2-də Avropa Birliyinin Gürcüstan vətəndaşları üçün viza rejiminin ləğvi barədə yekun qərarının ardınca martın 3-də NATO Hərbi Komitəsinin üzvlərinin Gürcüstana səfəri və NATO-nun ali hərbi orqanının Tiflisdə toplantı keçirməsi çox önəmli hadisədir. Gürcüstanın Qərbə inteqrasiyası prosesində sürətlənmə göz önündədir: "Bunun əsas səbəbi Rusiya-Qərb münasibətlərində yaranmış böhranın sonu görünməyən mərhələyə daxil olması ilə bağlıdır.

ABŞ-da Rusiya əleyhdarlığı az qala hər gün, hər saat şiddətlənir. Hazırda Vaşinqtonda hökm sürən ab-hava "soyuq müharibə" dövründən çox az fərqlənir. Rusiyanın ABŞ seçkilərinə müdaxiləsi və seçki öncəsində Trampın bəzi komanda üzvləri ilə şübhəli əlaqələr qurması Konqresdə olduqca aqressiv atmosferin yaranmasına səbəb olub. Sanksiyaların ləğvi ehtimalı tamamilə gündəmdən çıxıb, Reyqan dönəmini xatırladan bəyanatlar səslənir, Senat və Nümayəndələr Palatasının komitələrində Makkarti dönəmini xatırladan araşdırmalar gedir.

Avropa isə gec də olsa, anlayıb ki, öz içərisindəki populist-faşist cərəyanlar artıq alternativ siyasi xətt olma məsumluğundan çıxaraq "5-ci kolon" rolunu oynamağa və ənənəvi institutları, liberal-demokratik düzəni real şəkildə sarsıtmağa başlayıb. Fransada prezident seçkiləri öncəsi Rusiyaya yaxın namizədlərin "vurulması" mühüm gəlişmədir.

Bütün bunlar onu söyləməyə əsas verir ki, Qərb Moskvanın istəyinin əksinə olaraq, postsovet məkanını Rusiyanın nüfuz dairəsi kimi tanımayacaq. Bu, Gürcüstan, eləcə də Ukrayna üçün şansdır. Gürcüstan yaranmış əlverişli geosiyasi durumdan yararlanmağa çalışır".

Ekspertlər hesab edir ki, Gürcüstan-NATO münasibətlərinin getdikcə sıxlaşması təkcə Gürcüstan üçün deyil, həmçinin digər Cənubi Qafqaz ölkələri üçün də əhəmiyyətli hadisədir. Hansı sahədə olursa-olsun, NATO ilə hərbi və siyasi baxımdan əlaqələrin inkişafı müsbət qiymətləndirilməlidir. Hələ ötən ilin may ayında Gürcüstanda keçirilən NATO-nun hərbi təlimlərinin ən mühüm cəhəti ondan ibarət idi ki, bu təlimlərdə Gürcüstan tərəfindən iştirak edən bir bölük NATO Çevik Reaksiya Qüvvələrinin tərkib hissəsinə daxil edilmişdi. Bu təlimlərin ən böyük hərbi strateji nəticəsi budur ki, artıq bu təlimlərdə iştirak edən Gürcüstanın bir rotası NATO sertifikatını alıb. Artıq demək mümkündür ki, Gürcüstanda rəsmi olaraq NATO-nun məhdud hərbi kontingenti var. Bu, çox mühüm bir məsələdir və digər Cənubi Qafqaz ölkəsi olan Azərbaycana da dolayısı ilə olsa da təsiri var. Artıq NATO Gürcüstanda öz hərbi iştirakını təmin edib. NATO-nun Gürcüstanda hərbi iştirakının təmin olunması o deməkdir ki, artıq bu gün Gürcüstanda Rusiya və NATO qüvvələri qarşı-qarşıya durublar. Bu, Gürcüstanın əlaqələrinin inkişafında, onun NATO-ya üzvlüyü istiqamətində çox ciddi bir addımdır. Heç kəsə sirr deyil ki, Gürcüstan NATO üzvlüyünə tam hazırdır. Sadəcə olaraq, Almaniya başda olmaqla, Avropanın bir sıra ölkələri Rusiya faktoruna görə buna qarşı çıxırlar. Gürcüstan NATO üzvlüyünə hazırlıqla bağlı özündən asılı olan hər şeyi edib.

Bəs Azərbaycan-NATO münasibətləri hazırda nə yerdədir?

Ekspertlər hesab edir ki, burada durum fərqlidir. Azərbaycanın rəhbərliyi dəfələrlə bəyan edib ki, onların nəinki NATO-ya üzv olmağa, hətta Avropa Birliyi ilə assosiativ saziş imzalamağa belə, niyyətləri yoxdur. Məhz buna görə də Azərbaycanın NATO ilə əməkdaşlığı fərdi tərəfdaşlıq proqramı çərçivəsində qalıb. İllərdir Azərbaycan NATO ilə fərdi tərəfdaşlıq proqramı çərçivəsində tərəfdaşlıq edir. Bu, Gürcüstan-NATO münasibətləri ilə müqayisədə kifayət qədər aşağı səviyyədir. Ona görə Azərbaycanın NATO-ya inteqrasiya etməsi üçün çox böyük yol qət edilməlidir. Ölkənin NATO ilə yaxınlaşması müdafiə və hərbi sahədə NATO standartlarına yaxınlaşması deməkdir. NATO və Azərbaycan Silahlı Qüvvələrinin standartları yaxınlaşdıqca, gələcəkdə birgə təlimlərin, hərbi əməliyyatların keçirilməsi də mümkün olur. Eyni zamanda bu, Azərbaycanın müasir döyüş qabiliyyətinə, strategiya və taktikasına yiyələnməsinə gətirib çıxaracaq. Ölkəmizin hərbi büdcəsinin planlaşdırılmasından tutmuş, strateji planlaşdırılmasına qədər zabitlərimizin müasir hərbi elmi öyrənməsi ilə nəticələnəcək. Azərbaycan NATO kimi hərbi ittifaqlarla Gürcüstan qədər sıx əməkdaşlıq qurmayıb. Azərbaycan buna nail olsa, Qarabağ məsələsində mövqelərini daha da gücləndirər və dünyadan birmənalı dəstək əldə edər.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017

# Facebook intihar cəhdlərinin qarşısını alacaq




**"The İndependent" yazır ki, facebook istifadəçilərindən kimin intihara meylli olduğunu aşkar etmək üçün süni zəkadan istifadə etmək qərarına gəlib.**

Sosial media istifadəçilərinin post və kommentlərindən onların intihara nə dərəcədə meylli olduqlarını aşkar edən alqoritm yaradıb.

Facebook-da yazılmış bəzi postlardakı müəyyən söz və ifadələr "həyəcan siqnalı" rolunu oynayacaq.

"Hər şey qaydasındadırmı" və ya "mən səndən narahatam" kimi ifadələr intihar cəhdinin aşkara çıxarılması üçün siqnal hesab ediləcək.

Məqalədə deyilir ki, süni zəka aləti bu postları baxılmaq üçün canlı redaktorlara göndərəcək.

Facebook bundan əvvəl intihar cəhdlərinin qarşısının alınması üçün istifadəçilərin siqnallarına arxalanırdı.

Facebook şirkətinin istehsalat meneceri Vanessa Callison-Burch BuzzFeed saytına deyib ki, süni zəka müxtəlif həyəcan siqnallarını daha yaxşı təhlil edib nəticə çıxarmaq qabiliyyətinə malikdir.

Hazırda bu sistem ABŞ-da sınaqdan keçirilir.

Bundan başqa, facebook özünün canlı yayın və ya Facebook Live proqramına diqqət yetirəcək. Burada bir neçə intihar halları qeydə alınıb.

İndi belə yayınları seyr edənlər, intihar şübhəsi doğuran hallar barədə facebook menecerlərinə dərhal xəbər verə biləcəklər.

Belə bir sistem canlı intihar cəhdlərini, belə cəhdlər hələ başa çatmamış dayandıra bilər.

Facebook şəbəkəsinin layihə rəhbərlərindən Jennifer Guadagno deyib ki, "intihar yayınlarının" yarımçıq dayandırılması ilə bu məsələ həll edilə bilməz.

Ekspertin fikrincə, əksinə, intihar cəhdlərinin qarşısı hələ canlı yayın başa çatmamış dayandırılmalıdır.

Facebook bundan əvvəl süni zəkadan terror və qısnama hallarının qarşısının alınması üçün istifadə etməyə başlayıb (BBC Azərbaycan)



## 17 yaşlı oğul onu evləndirmək istəyən atasını öldürdü

**Atasını öldürməkdə təqdirləndirilən şəxs hakim qarşısına çıxarılıb. 1999-cu il təvəllüdlü Kənan Qasımov hadisəni törədərkən anlaqsız vəziyyətdə olub. Musavat.com xəbər verir ki, K.Qasımovun cinayət işi üzrə məhkəmə prosesi Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Tamila Nəsrullayevanın sədrliyi ilə baş tutub. Hazırlıq iclasında K.Qasımovun anket məlumatları dəqiqləşdirilib. Bildirilib ki, təqsirləndirilən şəxs yetkinlik yaşına çatmayan olduğundan qanuni nümayəndə ilə məhkəmədə iştirak edə bilər.**

Qasımovun qanuni nümayəndəsi prosesdə iştirak etmədiyindən hazırlıq iclası martın 7-dək təxirə salınıb.

Qətl hadisəsi 2016-cı ilin oktyabr ayında Xəzər rayonunun Binə qəsəbəsi, Südçülük sovxozunda baş verib. Gədəbəy rayon sakini 17 yaşlı Kənan Qasımov atası Qulu Qasımovun ürək nahiyəsinə bıçaq zərbəsi vurub. K.Qasımov hadisə baş verməzdən əvvəl psixoloji sarsıntı keçirib. Məlumata görə, o, bir neçə gün əvvəl təhsil aldığı liseydən yarımçıq çıxıb. Valideynləri K.Qasımovu evləndirmək istəsə də o, buna etiraz edib. Evlənmək məsələsinə görə atası ilə mübahisə edən Qasımov mətbəxdən bıçaq götürərək atasına zərbə endirib. Ürəyindən bıçaq zərbəsi alan Qulu Qasımov hadisə yerində keçinib.

K.Qasımov barəsində Cinayət Məcəlləsinin 120.1 (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi açılıb.

❑ **İ.Muradov**

## Şəkidə dağlıq ərazidə 26 yaşlı gəncin meyiti tapıldı

**Martın 2-də axşam saatlarında Şəkidə dağlıq ərazidə meyit tapılıb. Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, meyiti tapılan şəxs rayonun Şin kənd sakini, 1991-ci il təvəllüdlü Mehman Fərhad oğlu Cəmilovdur. Meyit Şin kənd inzibati ərazisinin yaxınlığındakı yüksək dağlıq ərazidən tapılıb.**

İlkin araşdırma zamanı məlum olub ki, dağlıq əraziyə ov etmək üçün gedən Fərhad Cəmilov qayadan yıxılıb və aldığı xəsarətdən hadisə yerində ölüb.

Faktla bağlı Şəki Rayon Prokurorluğunda araşdırma aparılır. (APA)

## Bakıda 70 yaşlı qadın intihar edib

**Bakıda intihar hadisəsi baş verib. Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, rayon sakini, 1947-ci il təvəllüdlü Kamilə Rzayeva sirkə turşusu içib. Xəstəxanaya yerləşdirilən K. Rzayeva orada dünyasını dəyişib.**

Faktla bağlı cinayət işi başlanıb, araşdırma aparılır.

## Nar ADA Universitetinin təşkil etdiyi karyera sərgisində yeni vakansiyalar təqdim etdi

**"Nar" gənclərin işlə təmin edilməsinə yönəlmiş təşəbbüsləri dəstəkləməyə davam edir. Belə ki, mobil operator 2 mart 2017-ci il tarixdə ADA Universiteti tərəfindən bu təhsil müəssisəsinin kampusunda təşkil edilmiş 5-ci karyera sərgisində iştirak edib. Universitetin istedadlı, məqsədyönlü və çalışqan tələbələrinin iştirakı ilə keçirilən sərgidə biznesin təşkili və idarə edilməsi, ictimai siyasət və idarəetmə, beynəlxalq münasibətlər və diplomatiya, informasiya texnologiyaları və kompüter mühəndisliyi, kompüter elmləri və sistem mühəndisliyi və iqtisadiyyat ixtisasları üzrə təhsil alan tələbələrlə görüş keçirilib.**

nar
Gəlin birlikdə böyüyək

**ADA Universiteti tələbələrinin işgüzar mühitə inteqrasiyasına dəstək məqsədilə təşkil edilmiş karyera sərgisində iştirak edən "Nar" bununla illər ərzində uğurlu əməkdaşlıq etdiyi ADA Universiteti ilə olan tərəfdaşlıq münasibətlərinə daha bir töhfə verib.**

**"Nar" gənc kadrlara 5 iş vakansiyası təqdim edib. Brend və reklam işi üzrə mütəxəssis, kommersiya üzrə analitik, rəqəmsal marketinq üzrə mütəxəssis, media satınalması üzrə mütəxəssis və müştəri xidmətləri üzrə nümayəndə kimi vakant iş yerlərini təqdim edən mobil operator gənclərin işə cəlb edilməsi istiqamətində daha bir addım atıb.**

**Tədbirdəki "Nar" stendi gənclərin böyük marağına səbəb olub. Təqdimat zamanı onlara iş vakansiyaları barədə daha ətraflı məlumat verilib, mobil operatorun nümayəndəsi gəncləri maraqlandıran suallara cavab verib, müvafiq prosedur əsasında maarifləndirici söhbət aparılıb. Namizədlər öz tərcümeyi-hallarını "Nar" nümayəndəsinə təqdim ediblər. "Nar" operatorunda karyera fürsəti ilə maraqlanmış ən uğurlu namizədlər müsahibəyə dəvət olunaraq mobil operatorda qeyd edilən vakansiyalar üzrə işlə təmin edilmək imkanı qazanacaqlar.**

**"Nar" vakansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.**

**ÖZƏL TİBBİ SAHƏDƏ 20 İLLİK TƏCRÜBƏ!**
**Xəstəlikdən əzab çəkən insanlara**
**Əsasən Kişilərə!**
**Diqqət!!! Axırıncı Şans!!!**

**Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, doktor VAİZ SƏMƏDOV şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəliklərinizi müayinə və müalicə edə bilər.**

- **Diaqnozu bilinməyən ağır hallar;**
- **Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər;**
- **Cinsi zəiflikdən impotensiyadək, marağın və aktların azalması;**
- **Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)**
- **Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)**
- **Sidikdə və spermada qan;**
- **Spermanın azalması, itməsi;**
- **Kişi cinsi orqanının birdən əyilməsi, balacalması;**
- **Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) yaşa görə balaca olması;**
- **Ailədə olan hormonal və infeksion səbəbli sonsuzluq;**
- **Tala-tala və hərtərəfli saçların tökülməsi;**
- **Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları;**
- **Baş-boyunda, onurğa-qılçaqlarda, qollar-ayaqlarda, qasıq-xayalarda ağrılar;**
- **Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.**
- **Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.**

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*

Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

bakcell

## "Bakcell" abunəçiləri "Instagram"dan pulsuz istifadə edə bilərlər

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti öz abunəçiləri üçün növbəti unikal internet təklifini təqdim edir. Bundan sonra smartfonu olan bütün Bakcell abunəçiləri eksklüziv Instagram paketləri ilə "Instagram"dan pulsuz istifadə edəcəklər. Paketlər həm fakturasız, həm də fakturalı xətt abunəçiləri üçün təklif olunur.**

**Yeni Instagram paketlərinə internetdə istənilən məqsədlər üçün istifadə olunan əsas trafik həcmi (MB) və xüsusi bonus - Instagram istifadəsi üçün pulsuz trafik daxildir. "Instagram"dan pulsuz istifadə üçün verilən trafik həcmi (MB) əsas internet həcminə bərabər olacaq və abunəçilərə əsas trafikdən istifadə etmədən müxtəlif şəkil və videolar yükləməyə və xəbər lentini nəzərdən keçirməyə imkan verəcək.**

**Əsas paketdə təqdim edilən trafik tükəndikdən sonra, əlavə hər 1 MB üçün xidmət haqqı 0.05 AZN təşkil edəcək.**

**Yeni paketlərin üstünlükləri və aktivləşdirmə kodları aşağıdakı cədvəldə əks olunub:**

| Əsas paket | Instagram trafiki | Aktivləşdirmə kodu | Qiymət (ƏDV daxil) |
|---|---|---|---|
| 1 GB | + 1 GB | *134*11#YES | 6 AZN/aylıq |
| 2 GB | + 2 GB | *134*22#YES | 8 AZN/ aylıq |
| 3 GB | + 3 GB | *134*33#YES | 10 AZN/ aylıq |
| 5 GB | + 5 GB | *134*55#YES | 12 AZN/ aylıq |

**«iOS», «Android», «Windows», «Blackberry» və digər əməliyyat sistemləri ilə çalışan bütün smartfon istifadəçiləri yuxarıdakı təklifdən faydalana bilər. Qiymətlərə bütün müvafiq vergilər daxildir.**

**Yeni Instagram trafikini yoxlamaq üçün "Bakcell" abunəçiləri sadəcə *134*559#YES yığmalıdır. Onlar həmçinin *134*555#YES yığmaqla paketi yenidən əldə edə və ya *134*0#YES yığmaqla xidməti deaktivasiya edə bilər.**

**Abunəçinin balansında kifayət qədər məbləğ olduğu halda, yeni "Instagram" paketləri hər ay avtomatik qaydada yenilənəcək.**

YENİ MÜSAVAT
N 49 (6663) 4 mart 2017

# Mübarəkə bəraət, onu devirənə məhbəs

## Kim cəzaya, kim bəraətə layiqdir...

**Misir Yüksək Apelyasiya Məhkəməsi keçmiş prezident Hüsnü Mübarəkin 2011-ci ildəki etiraz nümayişləri zamanı nümayişçilərin ölümündə günahsız olduğuna qərar verib. Məhkəmədən verilən açıqlamada Mübarəkin bəraət etdiyi bildirilib.**

Məlum olduğu kimi, Mübarək 6 il əvvəl paytaxt Qahirədəki etiraz nümayişləri zamanı 800-dən çox adamın ölümündə günahkar bilinirdi. Bu etiraz nümayişləri nəticəsində Mübarək istefa vermək məcburiyyətində qalmışdı.

Apelyasiya iddiası 2015-ci ilin noyabr ayında başlamış, ancaq 88 yaşındakı Mübarəkin sağlamlıq problemləri səbəbindən məhkəmə təxirə salınmışdı. Misirin keçmiş lideri Mübarək sağlamlıq problemləri ilə bağlı Qahirədə hərbi xəstəxanada saxlanır.

Mübarək məhkəmə başlanandan bəri ilk dəfə prosesə qatılıb. O, məhkəmə zamanı günahsız olduğunu bildirib. Yekun nəticədə, Yüksək Apelyasiya Məhkəməsinin qərarının qəti olduğu və etiraz şikayətinin verilmə imkanı olmadığı bildirilib.

Hüsnü Mübarək devrildikdən sonra Misirin demokratik yolla seçilmiş və az sonra-2013-cü ildə hərbi çevriliş nəticəsində devrilmiş prezidenti Məhəmməd Mursi isə hələ də həbsdə saxlanılır. 2016-cı ilin 14 noyabrında Mursi barədə ölüm hökmü ləğv edilsə də ömürlük azadlıqdan məhrumetmə cəzası qalır.

Bu fakt bir daha “inqilab öz balalarını yeyir” deyiminin əyani sübutudurmu? Diktatora bəraət verilməsi, digər bir keçmiş prezidentin isə həbsdə saxlanması ədalətlidirmi və ayrı-seçkilik nədən qaynaqlanır?

**Politoloq Elçin Mirzəbəyli bildirdi ki, Misirdə baş verən son hadisələr “ərəb baharı” layihəsinin tamamilə iflasa uğradığını sübuta yetirir. Misirdə baş verənlər inqilab deyildi, idarə olunan xaos ssenarisi əsasında həyata keçirilən vətəndaş qarşıdurması idi. Misir kimi ölkələrdə demokratik dəyişikliklər üçün on illər boyu sistemli islahatlar aparılmalıydı.**



Hüsnü Mübarək



Məhəmməd Mursi

**Toplumun 90 faizinin şüuru demokratik dəyişikliklərə əsas vermirdi:** “Məhz bu səbəbdən də hakimiyyətə Mübarəkin hərbi diktaturasını teokratik diktatura ilə əvəz etmək istəyən Mursi gəldi. Mursinin prezident postuna sahibləndikdən sonra qəbul etdiyi qərarlar da bunu sübuta yetirir. Mursinin 2012-ci il noyabrın 22-də imzaladığı konstitusiya bəyannaməsi məhkəmələrə parlamentin yuxarı palatasını və konstitusiya assambleyasını buraxmağı qadağan edirdi, eyni zamanda prezidentə imkan verirdi ki, ”inqilabın müdafiəsi" adı altında hüquqi-normativ akt xarakteri daşıyan sərəncamlar versin. Mursinin imzaladığı konstitusiya bəyannaməsinə görə, heç bir məhkəmə instansiyası prezidentin sərəncamlarını ləğv edə bilməzdi. Hətta illərin diktatoru Mübarək belə Mursi kimi hakimi-mütləq olmaq iddiasına düşməmişdi, özünü ən azı qanunvericilik səviyyəsində məhkəmə hakimiyyətindən, qanunun aliliyindən üstün tutmamışdı. Buna görə Mübarək Mursidən daha mübarək adam sayıldı. İnqilablar isə heç bir xalqa xeyir gətirməyib. İnqilab öz balalarını yemir, sadəlövh vətənpərvərləri nəyin bahasına olursa-olsun hakimiyyətə yiyələnmək istəyən yırtıcılara yem edir".

❑ **Etibar SEYİDAĞA**

# 8 mart həqiqətən qadınların günüdürmü?

**Mehriban Vəzir:** “8 Mart Azərbaycanda öz təmayülünə, hədəflərinə uyğun keçirilmir”

**Səidə Qocamanlı:** “Bu elə bir gündür ki, onu nə tarixdən, nə də təqvimdən pozmaq mümkündür”

**8 Mart Beynəlxalq Qadınlar Günü yaxınlaşır. Qadınlar günü kimi romantik qeyd edilsə də, əslində bu günün kökündə heç də romantik əsaslar durmur. Belə ki, 8 Mart inqilabçı Klara Setkinin adı ilə bağlıdır. 1910-cu il Kopenhagendə keçirilən beynəlxalq sosialist qadınlar konfransında Klara Setkin 8 martın beynəlxalq qadınlar günü kimi qeyd olunması təklifi ilə çıxış edib.**




Məhz bu tarixin seçilməsi təsadüfi olmayıb. Belə ki, 1857-ci ilin bu günü Nyu-Yorkda tikiş və ayaqqabı fabrikinin qadın işçiləri nümayişə çıxıblar. Onlar 10 saatlıq iş günü, işıqlı və quru iş yeri, kişilərlə eyni maaş tələb ediblər. 1857-ci il 8 mart tarixindən sonra ilk dəfə olaraq qadın üzvlərdən ibarət yeni “həmkarlar ittifaqı” təşkilatı yaranıb. Həmin gün Nyu-Yorkun bir çox şəhərlərində yüzlərlə qadın nümayişə çıxaraq “seçki” hüququ tələb edirdi. 1911-ci il 19 mart tarixində bu bayram Avstriya, Danimarka, Almaniya və İsveçrədə qeyd olunub. Rusiyada isə ilk beynəlxalq qadınlar günü 1913-cü ildə Peterburqda qeyd olunub. 1917-ci ildə rusiyalı qadınlar “Çörək və sülh” şüarı ilə küçələrə çıxıblar. 4 gün sonra II Nikolay taxtdan salınıb. Müvəqqəti hökumət qadınların seçmək hüququna zəmanət verib. Bu hadisə 8 mart tarixinə təsadüf edib.

Azərbaycanda bu bayram 1917-ci ildən qeyd olunur.

Beynəlxalq qadınlar günü sovetlər hakimiyyətinin ilk illərindən dövlət bayramı kimi qeyd olunmağa başlayıb. 1977-ci ildə BMT 8 martı “Beynəlxalq Qadınlar Günü” kimi elan etdi və bununla da “mübarizə” sözü bayramın adından götürüldü, bayram sevgi, diqqət bayramı kimi tarixə düşdü. Sovetlər Birliyinin dağılmasına baxmayaraq, 8 mart bir çox postsovet ölkələrində bu günə qədər qeyd olunur.

Lakin artıq bir neçə ildir ki, bir sıra şəxslər bu bayramın 23 fevral kimi sovetlərdən qalma bir ənənə olduğunu əsas gətirərək, ləğv edilməsi barədə müzakirələr aparır. Ancaq bütün bu müzakirələr ildə bir dəfə olan qadınlar bayramının ləğv edilməsinə yetmir. Maraqlıdır, doğrudanmı bu gün mahiyyət etibarı ilə sovet ənənələrinə söykənir və ləğv edilməlidir?

**Publisist Mehriban Vəzir 8 martın öz təmayülünə, hədəflərinə uyğun olaraq keçirilmədiyi dedi:** “Bu suala təqribən 25 il əvvəl cavab verilib. Elçibəy iqtidarında hansı bayramların ləğv olunub, hansı bayramların qalması ilə bağlı məsələlər müzakirə olunub. Sovet ideologiyası ilə bağlı olan bütün bayramlar ləğv olundu. Amma xalqın ənənələri, bəşəri ənənələrlə bağlı olan bayramlar saxlanılıb. O bayramlardan biri də 8 mart idi. Düzdür, 8 martın sovet dönəmində təmayülü dəyişib qadın bayramına çevrilib. Əslində isə bu, qadın bayramı deyil. Bu, qadınların ölmüş hüquqları uğrunda mübarizə və həmrəylik günüdür. Ona görə də qərar verildi ki, bu bayram saxlanılsın. Mən də bu fikri dəstəkləyirəm ki, çox düzgün qərar verilib və 8 mart bayram kimi saxlanılıb. Bu qərar artıq verilib və üzərindən 25 il keçib. İndi hansısa qrup bunu müzakirə edir. Əlbəttə, cəmiyyətdə bütün müzakirələrə meydan olmalıdır. Amma düşünürəm ki, bu, qadınların günüdür. Yəni bunun ləğv olunması ilə qadınların xeyrinə və ya zərərinə heç nə olmur. Çünki 8 mart Azərbaycanda öz təmayülünə, hədəflərinə uyğun olaraq keçirilmir. Bu bir bayrama çevrilib, ictimai şüurda oturub və ənənələşib. Bunu yenidən müzakirə etməyə bir lüzum görmürəm”.

**İnsan haqları müdafiəçisi Səidə Qocamanlı isə bildirdi ki, bu elə bir gündür ki, onu nə tarixdən, nə də təqvimdən silmək mümkündür:** “8 mart gününü bütün qadınlar gözləyir. Buna rəğmən, elə düşünürəm ki, ilin 365 gününün hamısı hər bir qadın üçün 8 mart olmalıdır. Nə olsun ki, bu bayram sovetlərdən qalıb. Bu, qadın hüquqları ilə bağlı bir bayramdır. 23 fevralla 8 martı müqayisə etmək düzgün deyil. Bunlar həm siyasi tərəfdən, həm də mənəvi tərəfdən tamamilə başqa şeylərdir. 8 mart birincisi bahar bayramıdır. Qadınların ən gözəl, çiçəklənən, bahara addım atan bir günüdür. İkincisi isə düşünürəm ki, bu, hər bir qadını sevindirən bir gündür. Ona görə də qalmalıdır. Bu bayramın məğzi bütün dünya qadınlarının həmrəylik günüdür. Bu, elə bir gündür ki, onu nə tarixdən, nə də təqvimdən heç cürə pozmaq mümkün deyil. Sovetin o qədər yaxşı işləri olub ki, biz indiyə kimi onun həsrətindəyik. 8 mart da o təqdirəlayiq bayramlardan biridir”.

❑ **Günel MANAFLI**



## Dünyanın ən zəngin 10 ölkəsi

**Dünyanın ən zəngin 10 ölkəsinin bəzilərinin karbohidrogen ehtiyatlarına sahib olduqları bildirilir. “Report” “Vestifinance.ru” saytına istinadən xəbər verir ki, siyahı “Global Finance” aylıq maliyyə jurnalı tərəfindən tərtib edilib.**

Araşdırmaya görə, dünyanın adambaşına düşən gəlirə görə ən zəngin ölkəsi Qətərdir. Bu ölkədə ÜDM-in 50%-i neft-qaz ixracından əldə edilir və adambaşına gəlir 129 512 ABŞ dolları təşkil edir. İkinci sırada Lüksemburq (100 991 dollar) qərarlaşıb. Bu ölkə offşor zonalar və münbit investisiya mühiti ilə məşhurdur. Üçüncü sıranı kazinoları ilə məşhur olan Makao (87 845 dollar) tutub. Sonrakı yerləri Sinqapur (86 854 dollar), Bruney (77 662 dollar), Küveyt (70 587 dollar), İrlandiya (69 374 dollar), Norveç (69 031 dollar), Birləşmiş Ərəb Əmirlikləri (67 947 dollar) və San-Marino (64 465 dollar) bölüşür.

Göründüyü kimi, adambaşı gəlirə görə ən zəngin 10 ölkə arasında 5 ölkə neft-qaz ehtiyatları hesabına varlanıb.

# YENİ MÜSAVAT

## Son səhifə

N 49 (6663) 4 mart 2017

# Dünyanın ən çox uşaq doğan qadını öldü



Bu günə qədər 69 uşaq dünyaya gətirən Fələstin sakini 40 yaşında dünyasını dəyişib. Lenta.ru saytının xəbərinə görə, bu barədə "Al Arabiya" xəbər yayıb. Xəbərdə qeyd olunur ki, qadının ölməsi barədə 26 fevralda yerli KİV-lərə onun əri məlumat verib. Ölüm səbəbləri barədə heç nə deyilmir. Xəbərdə qeyd olunur ki, dünyasını dəyişən qadın dünyanın ən çox uşaq dünyaya gətirən xanımı hesab olunur. Amma onun rəsmi rekordu barədə rəsmi hər hansı məlumat verilmir.

Ginnesin Rekordlar Kitabına görə, dünyanın ən çox doğurqan qadını rus kəndli Fedor Vasilyevin arvadıdır. O, 18-ci əsrdə Şuy şəhərindəki İvanov vilayətində yaşayıb və 69 uşaq dünyaya gətirib. Bu yaxınlarda isə xəbər yayılmışdı ki, Çin sakini altı günlük intervalla bir oğlan və iki qız dünyaya gətirib. Çəki çatışmazlığı ucbatından hər üç körpəni yarımçıq doğulmuş uşaqlar üçün şöbəyə yerləşdiriblər.



## Yadplanetliyə bənzəmək üçün 110 plastik əməliyyat keçirdi

Los-Anceles sakini 110 plastik cərrahiyyə əməliyyatı aparıb ki, özünü yadplanetliyə bənzətsin. Bu barədə lenta.ru "Daily Mirror"a istinadən xəbər verib. 22 yaşlı Vinni Ohh ilk dəfə plastik cərraha 5 il öncə müraciət edib. O, həmin vaxt dodaqlarını şişirtmək istəyib. Ondan sonra isə növbə ilə alnının, yanaqlarının və üzünün quruluşuna da müəyyən korreksiyalar edib. Bundan başqa, elə təkcə dodaqlarının quruluşunu dəyişmək üçün 5 dəfə əməliyyat keçirib. Yadplanetlilərə bənzəmək üçün Ox gözünə də qara kontakt linza taxır. Bundan başqa, onun dırnaqları taxmadır, saçları isə parlaq rənglərlə rənglənib. Onun bu günə qədər həyata keçirdiyi və bundan sonra planlaşdırdığı əməliyyatların məbləği 160 min dollardır.

Yanvar ayında məlum olmuşdu ki, braziliyalı Rodriqo Alves plastik əməliyyata 368 min funt sterlinq xərcləyib.




QOÇ - Sizə qarşı yönələn iradların obyektivlik dərəcəsindən asılı olaraq onlara münasibət bildirməyiniz vacibdir. Çünki belə yerdə susmaq "qızıl" olmayacaq. Sizi sevənlərə qayğı göstərin.

BUĞA - Nahara qədər Ay bürcünüzdə olduğu üçün gərginliyiniz ola bilər. Lakin təmkin göstərməklə ola bilsin, bu kimi hallarla üzləşməyəsiniz. Sağlamlığınızın qayğısına qalmağı da unutmayın.

ƏKİZLƏR - Təəssüf ki, ulduzların düzümü kifayət qədər gərgin gün olduğunu göstərir. Odur ki, hər addımda ehtiyatlı olmalısınız. Ağlınız kəsməyən, həmçinin riskli işlərdən uzaq olmağa çalışın.

XƏRÇƏNG - Saat 14-ə qədər darıxdırıcı məqamlar yaşasanız da, sonrakı müddətdə aktivliyiniz artacaq. Müştərək fəaliyyət üçün mühüm şəxslərlə görüş keçirin. Daxili orqanlarınıza ciddi fikir verin.

ŞİR - Enerji və səhhətiniz qaydasında olduğundan ovqatınız xoş olacaq. Odur ki, ciddi maneə ilə rastlaşmayacaqsınız. Ulduzlar hansısa xəstəyə baş çəkməyinizi tövsiyə edir.

QIZ - Yaxın on gündə görəcəyiniz işləri mütləq bu gün dəqiqləşdirin. İstənilən sövdələşmədə iştirakınız əhəmiyyətlidir. Vaxtınız qalsa, məhəbbət amilinə də nəzər yetirin.

TƏRƏZİ - Şanslarınız artsa da, qarşınızda duran maneələri dəf etmək üçün özünüzdə təpər tapmalısınız. Əlxüsus da günün ikinci yarısında ayıq-sayıqlığınızı artırmalı, münaqişələrdən yayınmalısınız.

ƏQRƏB - Ulduzlar bu gün işlərinizin çox olmayacağını, buna görə də rahatlığınızı bərpa edəcəyinizdən xəbər verir. Vaxtınızın əsas hissəsini sevgiyə həsr edin. Bugünkü dualarınız qəbul olunacaq.

OXATAN - Durumunuzdan bəlli olur ki, sevindirici xəbərlər gözləyirsiniz. Əmin olun ki, Göy qübbəsi sizi intizarda qoymayacaq. Bəzi mətləbləri gerçəkləşdirmək üçün pul xərcləməkdən çəkinməyin.

OĞLAQ - Mövcud durumunuzu yüngülləşdirmək üçün etibar etdiyiniz dostlarınızdan dəstək almağa çalışın. Qərar çıxararkən tələsməyin. Sənədləşdirmə ilə bağlı işlərinizi qaydasına salın.

SUTÖKƏN - Qarşılıqlı münasibətlər zəminində qərəzli mövqe nümayiş etdirməyin. Yersiz qısqanclıq, tələsik qərarlar sizə başucalığı gətirən deyil. Bir qədər məxfilik prinsiplərinə söykənin.

BALIQLAR - Həddindən ziyadə uğurlu bir gün yaşayacaqsınız. Ünsiyyətdə olduğunuz hər bir kəs ovqatınızın yüksəlməsinə xidmət edəcək. Naharda sürprizlər mümkündür. Məsuliyyətinizi artırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 2 dəfə cərəyan vurdu, sağ qaldı



İki dəfə cərəyan vuran və 30 metr hündürlükdən yerə düşən kişi sağ qalıb. Olay anının videosu internetdə yayılıb. Roliki 4 min nəfərə yaxın insan izləyib. Zərərçəkmişin adı və insidentin baş verdiyi məkan barədə hər hansı açıqlama verilmir. "Daily Mail"in xəbərinə görə, qaradərili kişinin hansısa servis şirkətində çalışdığı aydınlaşır. Amma o, cərəyan vurandan sonra qısa müddət çaşqınlıq yaşasa da, tez toparlanır və heç nəyi sındırmır.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100